# ZƏFƏR SALNAMƏSİ

# ХРОНИКИ ПОБЕДЫ

# A CHRONICLE OF VICTORY



✱İRS✱HERITAGE✱НАСЛЕДИЕ✱

Kitab Azərbaycan Respublikası Prezidenti
Administrasiyasının dəstəyi ilə hazırlanmışdır.

The book has been prepared with the assistance
of the Presidential Administration of the Republic of Azerbaijan.

Книга подготовлена при содействии Администрации
Президента Азербайджанской Республики.

USBN 978-9952-8344-9-9

© Bütün hüquqlar qorunur. Kitabdakı materiallardan yalnız
IRS Publishing House nəşriyyatının icazəsi ilə istifadə edilə bilər

© All rights reserved. Use of material from this book is possible
only with the permission of IRS Publishing House

© Все права защищены. Использование материалов книги
возможно только с разрешения издательства IRS Publishing House

# ZƏFƏR SALNAMƏSİ

# ХРОНИКИ ПОБЕДЫ

# A CHRONICLE OF VICTORY

IRS Publishing House
2021

Dahi Azərbaycan şairi və görkəmli dövlət xadimi Molla Pənah Vaqifin dağıdılmış məqbərəsi önündə dayanarkən 1982-ci ildə Şuşada baş vermiş hadisələri xatırlayıram. Şairin yaradıcılığına həsr olunmuş festivalın açılışına o zaman Ulu Öndər Heydər Əliyev gəlmişdi, yazıçılar, şairlər, tarixçilər, ədəbiyyatşünaslar və şairin poeziyasının vurğunları toplaşmışdı.
Qonaqlar öz dövrünün görkəmli siyasi xadimi olan şairin yaradıcılığını xatırlayır, onun faciəli ölümünə təəssüflənirdilər. O zaman onlar bir-birini azərbaycanlılara və ermənilərə ayırmır, cəmi bir neçə ildən sonra Qarabağda separatizmin baş qaldıracağını, Ermənistanın Azərbaycana qarşı təcavüzə başlayacağını ağıllarına belə gətirmirdilər. Bir milyondan çox azərbaycanlının Ermənistan və ermənilər tərəfindən işğal olunmuş Qarabağdan, doğma torpaqlarından qovulacağını, minlərlə insanın vəhşicəsinə öldürüləcəyini, etnik təmizləmə və soyqırımına məruz qalacağını, evlərinin dağıdılacağını, tarixi abidələrin, məscid və qəbristanlıqların təhqir ediləcəyini təsəvvür belə etmirdilər.
30 ilə yaxın davam edən belə vəhşilik nümunələrinə dünyada nadir hallarda rast gəlinir.
Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xanın Rusiya ilə imzaladığı Kürəkçay müqaviləsinə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil dövlət kimi Rusiya imperiyasının tabeliyinə keçir və orada heç bir erməni əhalisindən söhbət getmir. İran və Şərqi Anadoludan ermənilər buraya yalnız iki onillikdən sonra köçürülməyə başlayır. Azərbaycanlılar onları mehribanlıq və səmimiyyətlə qəbul edir, sığınacaq verir.

When I was standing in front of the destroyed mausoleum of brilliant Azerbaijani poet and outstanding statesman Mullah Panah Vagif recently, I recalled the events in Shusha of 1982. Great leader Heydar Aliyev came to the opening of the festival dedicated to the poet. There were also writers, poets, historians, literary critics and admirers of Vagif's talent attending the event. People recalled the poet, who was a prominent political figure of his time, regretted his tragic death. And there was no division between Azerbaijanis and Armenians. It never occurred to anyone that only a few years later separatism would raise its head in Karabakh and Armenia would unleash aggression against Azerbaijan, that more than a million Azerbaijanis would be deported from Armenia and Armenian-occupied Karabakh, that hundreds of people would be brutally killed and thousands subjected to ethnic cleansing and genocide, their houses would be destroyed, historical sites would be demolished, mosques and cemeteries would be desecrated. Such barbarism, which lasted almost 30 years, is a rare occurrence around the world.
Karabakh is an inalienable part of Azerbaijan. In 1805, Ibrahimkhalil Khan of Karabakh signed the Kurekchay Treaty with Russian general Tsitsianov, according to which the Karabakh khanate of Azerbaijan as an independent state was transferred under the control of the Russian Empire. There is not a word about the Armenian population in it. Armenian settlers from Iran and Eastern Anatolia appeared there only two decades later.

Стоя перед разрушенным мавзолеем гениального азербайджанского поэта и выдающегося государственного деятеля-Моллы Панаха Вагифа, я вспомнил события 1982 года в Шуше. Тогда на открытие фестиваля, посвященного творчеству поэта, приехал великий Гейдар Алиев, собрались писатели, поэты, историки, литературоведы и поклонники таланта Вагифа. Гости вспоминали творчество поэта, бывшего видным политическим деятелем своей эпохи, сожалели о его трагической гибели. В то время они не делили друг друга на азербайджанцев и армян. Никому в голову не могло прийти, что пройдет всего несколько лет и в Карабахе поднимет голову сепаратизм, а Армения развяжет агрессию против Азербайджана. Более миллиона азербайджанцев будет депортировано из Армении и оккупированного армянами Карабаха, сотни людей будут зверски убиты, тысячи подвергнутся этнической чистке и геноциду, их дома будут разрушены, исторические памятники снесены, мечети и кладбища осквернены. Подобное варварство, длившееся почти 30 лет, в мире встречается редко.
Карабах – неотъемлемая часть Азербайджана. В 1805 году карабахский хан Ибрагим Халил хан подписал Кюрекчайский договор, согласно которому Карабахское ханство Азербайджана как независимая страна перешло в подчинение Российской империи. В нем нет ни слова об армянском населении. Армяне-переселенцы из Ирана и Восточной Анатолии появились здесь лишь двумя десятилетиями позже. Азербайджанцы приняли их со всей искренностью и теплотой,

Lakin zaman keçdikcə qonaqlar özlərini ev sahibləri kimi aparmağa başlayır.
XX əsr boyu erməni millətçiləri tərəfindən qızışdırılan şovinist meyllər 1905-ci ildə kütləvi qırğınlar, 1918-ci ildə azərbaycanlıların soyqırımı və etnik təmizlənməyə məruz qalması, 1948-ci ildə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası və nəhayət, 1988-ci ildə soydaşlarımızın öz dədə-baba yurdlarından qovulması, 90-cı illərin əvvəllərində isə Azərbaycan ərazisinin 20%-nin işğalı ilə nəticələndi. Azərbaycanlı qaçqınların və məcburi köçkünlərin sayı 1 milyonu keçdi.
1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyərək erməni qoşunlarının işğal olunmuş torpaqlardan çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi. 28 il ərzində bütün beynəlxalq təşkilatların bu tələbləri dəstəkləməsinə baxmayaraq, Ermənistan onlara etinasızlıq göstərir, danışıqlar prosesini hər vəchlə ləngidir, bu torpaqların tarixən onlara mənsub olması barədə yalan məlumatlar yayırdı.
Biz Ermənistanın növbəti təxribatına cavab verməyə məcbur olduq. Bizim apardığımız müharibə ədalətli idi. Çünki həm tarixi, həm də beynəlxalq hüquq baxımından biz haqlı idik. Xalqımızın gücü və iradəsi, iqtidar-xalq-ordu birliyi şanlı qələbəmizi təmin etdi. Erməni təcavüzkarlarının torpağımızı nə hala saldıqlarını hamı görməlidir. Ermənistan rəhbərləri buna görə cavab verməlidirlər. Biz isə düşmən tərəfindən viran qoyulmuş torpaqlarımızı bərpa edəcəyik, onu çiçəklənən diyara çevirəcəyik. Azad olunmuş torpaqlar bütöv və yeni Azərbaycanın rəmzinə çevriləcək. Qarabağ Azərbaycandır! Və biz həmişəlik qayıtmışıq!

The Azerbaijanis received them with all sincerity and warmth, gave them shelter. But time passed and the guests began to behave like hosts.
Chauvinist sentiments fuelled by Armenian bigots in the early 20th century led to massacres and pogroms in 1905, genocide and ethnic cleansing of Azerbaijanis in 1918, deportation of Azerbaijanis from the Armenian SSR in 1948, and, finally, deportation of Azerbaijan's in 1988 and the occupation by Armenia of 20 percent of Azerbaijan's territory in the early 1990s. The number of Azerbaijani refugees and internally displaced persons exceeds one million people.
In 1993, the UN Security Council adopted four resolutions  reaffirming Azerbaijan’s territorial integrity and demanding a withdrawal of Armenian troops from the occupied territories. Although all international organisations supported these demands for 28 years, Armenia ignored them, did everything it could to slow down the process of negotiations, disseminated fakes about these lands belonging to it.
Ours was a just war, a war of liberation. We had to respond to yet another provocation by Armenia. Because historically and according to international law, justice was on our side and we secured the victory thanks to the strength and determination of our people, the unity between the government, people and the army.
The world should see what Armenian invaders have done to our lands. And Armenian leaders should be held accountable for this. Of course, we will restore our lands devastated by the enemy and turn them into a prosperous region. The liberated lands will become a symbol of a united and new Azerbaijan. Karabakh is Azerbaijan! And we are back for good!

дали им кров. Но прошло время, и гости стали себя вести как хозяева.
Шовинистические настроения, разжигаемые армянскими националистами с начала XX века, привели к резне и погромам в 1905 году, геноциду и этнической чистке азербайджанцев в 1918 году, депортации азербайджанцев из Армянской ССР в 1948 году, к изгнанию наших соотечественников со своих исконных земель в 1988 году и оккупации Арменией 20 процентов территории Азербайджана в начале 90-х. Число азербайджанских беженцев и вынужденных переселенцев превысило миллион человек.
В 1993 году Совет Безопасности ООН принял 4 резолюции, еще раз подтвердившие территориальную целостность Азербайджана и требующие вывода армянских войск с оккупированных территорий. Несмотря на то что на протяжении 28 лет все международные организации поддерживали эти требования, Армения их игнорировала, всячески тормозила переговорный процесс, распространяла ложную информацию о том, что якобы эти земли исторически принадлежали ей.
Мы были вынуждены ответить на очередную провокацию со стороны Армении. Наша война была справедливой. Потому что с точки зрения истории и международного права мы были правы. Сила и воля нашего народа, единство власти-народа-армии обеспечили нашу славную победу.
Все должны увидеть, во что превратили нашу землю армянские оккупанты. Руководители Армении должны ответить за это. Мы же восстановим наши земли, превратим их в процветающий край. Освобожденные земли станут символом единого, нового Азербайджана.
Карабах – это Азербайджан! И мы вернулись навсегда!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

President of the Republic of Azerbaijan Ilham Aliyev

Президент Азербайджанской Республики Ильхам Алиев




ƏRƏFƏ
THE RUN-UP
НАКАНУНЕ


2 aprel
april
апреля
2016

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN MƏLUMATINA GÖRƏ APRELİN 1-DƏ ERMƏNİ QOŞUNLARI AZƏRBAYCAN MÖVQELƏRİNİ, ELƏCƏ DƏ ARXA CƏBHƏDƏ YERLƏŞƏN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİ İNTENSİV ARTİLLERİYA ATƏŞİNƏ MƏRUZ QOYUB. DİNC ƏHALİ ARASINDA TƏLƏFAT VAR.

AS REPORTED BY THE MINISTRY OF DEFENCE OF AZERBAIJAN, ON 1 APRIL, ARMENIAN TROOPS OPENED INTENSIVE ARTILLERY FIRE ON AZERBAIJAN'S POSITIONS, AS WELL AS ON THE SETTLEMENTS LOCATED TO THE REAR. THERE ARE CIVILIAN CASUALTIES.

КАК СООБЩИЛО МИНИСТЕРСТВО ОБОРОНЫ АЗЕРБАЙДЖАНА, 1 АПРЕЛЯ АРМЯНСКИЕ ВОЙСКА ОТКРЫЛИ ИНТЕНСИВНЫЙ АРТИЛЛЕРИЙСКИЙ ОГОНЬ ПО АЗЕРБАЙДЖАНСКИМ ПОЗИЦИЯМ, А ТАКЖЕ ПО НАХОДЯЩИМСЯ В ТЫЛУ АЗЕРБАЙДЖАНСКИМ НАСЕЛЕННЫМ ПУНКТАМ. СРЕДИ МИРНОГО НАСЕЛЕНИЯ ЕСТЬ ЖЕРТВЫ.



Aprel döyüşləri ərəfəsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni təkliflər irəli sürdülər. Eyni zamanda ABŞ hökuməti Ermənistana həmin mövzuya dair bir sıra müraciətlər ünvanladı. Beləliklə, sülh yolu ilə nizamlanmanın yeni perspektivləri formalaşmağa başladı. Lakin belə bir dönüş Ermənistan rəhbərlərini qətiyyən qane etmirdi. Status-kvonun dəyişdirilməsinə mane olmaq üçün Ermənistan tərəfi sınanmış üsula - təmas xəttində vəziyyətin gərginləşdirilməsinə əl atdı. Ermənistan silahlı birləşmələri Azərbaycanın cəbhəyanı mövqelərini və dinc əhalinin yaşadığı kəndləri atəşə tutdu. Azərbaycan Ordusunun komandanlığı əks-hücum əməliyyatının aparılmasına qərar verdi. Məqsəd düşmənin atəş nöqtələrini dəf etmək və onu mülki əhali üçün

In the run-up to the April battles, the OSCE Minsk Group co-chairs put forward new proposals to resolve the Nagorno-Karabakh conflict. At the same time, the U.S. government sent a number of messages to Armenia on the same issue. Thus, a process to shape new prospects for a peaceful settlement began. But the Armenian leadership was strongly resistant to such a turn of events. In an effort to prevent a change in the status quo, the Armenian side resorted to a tried and tested means: aggravating the situation at the line of contact and firing on Azerbaijan's positions and frontline villages.
The Azerbaijani military command decided to conduct a counter-offensive operation. Its goal was to suppress the enemy's artillery and force a retreat far enough to ensure safety of the civilian population. Attempting to neutralise the Azer-

Накануне апрельских боев сопредседатели Минской группы ОБСЕ выдвинули новые предложения по решению нагорно-карабахского конфликта. Одновременно правительство США адресовало Армении ряд посланий, посвященных этой же теме. Тем самым начался процесс формирования новых перспектив мирного урегулирования. Но армянских лидеров такой поворот категорически не устраивал. Чтобы помешать изменению статус-кво, армянская сторона прибегла к испытанному приему: обострению обстановки на линии соприкосновения. Вооруженные силы Армении обстреляли азербайджанские позиции и мирные селения в прифронтовой полосе.
Азербайджанское командование приняло решение о проведении контрнаступательной операции. Её целью было подавить огневые точки противника и заставить его



Aprel döyüşləri nəticəsində Cəbrayıl, Füzuli və Ağdərə rayonlarının 2 min hektardan artıq ərazisi azad edildi. Ermənistan ordusuna 1994-cü ildə atəşkəs əldə olunduqdan sonrakı dövr ərzində ilk belə zərbə vuruldu.

The April battles resulted in the liberation of more than 2,000 hectares of lands in Jabrayil, Fuzuli and Aghdara districts. This was the most devastating blow suffered by the Armenian army since the 1994 ceasefire.

Итогом апрельских боев стало освобождение более 2 тысяч га территории Джебраильского, Физулинского и Агдеринского районов. Армянская армия получила самый сокрушительный удар за весь период с заключения перемирия в 1994 году.

təhlükəsiz məsafəyə çəkilməyə vadar etmək idi.
Azərbaycan Ordusunun əməliyyat üstünlüyünü neytrallaşdırmağa cəhd göstərən erməni komandanlığı işğal altındakı Ağdərə şəhəri və Madagiz kəndi (indiki Suqovuşan) yaxınlığında yerləşdirilmiş hissələrin köməyi ilə hücuma keçdi.
Lakin hücum dəf edildi. Düşmən 300 nəfərdən çox itki verdi. Cəbhənin şimal-şərq istiqamətindəki Seysulan kəndi, Talış kəndi ətrafındakı strateji yüksəkliklər, cənubda isə Horadiz şəhəri yaxınlığındakı strateji yüksəkliklər, o cümlədən Lələ Təpə yüksəkliyi azad edildi.
Ermənistan tərəfindən daim atəşə tutulan Cocuq Mərcanlı kəndi dinc yaşayış imkanı qazandı. Burada 100 ev və məktəb tikildi, su və qaz təchizatı bərpa edildi, Şuşa şəhərində yerləşən "Yuxarı Gövhər ağa" məscidinə bənzəyən məscid ucaldıldı. Cocuq Mərcanlı Qarabağın azadlığının başlanğıcının rəmzinə çevrildi.

baijani army's operational superiority, the Armenian command launched an offensive using forces stationed near the occupied city of Aghdara and village of Madagiz. But the attack was repulsed and the enemy lost more than 300 personnel. The village of Seysulan and strategic heights around Talysh village in the north-eastern section of the front, as well as strategic heights near Horadiz city, including the Lala-Tapa height, were liberated.
The village of Jojug Marjanli, which had been constantly subject to Armenian shelling, could now live in peace. A hundred houses and a school were built there, water and gas supplies were restored and a mosque similar to the Upper Govharagha mosque in Shusha was erected. Jojug Marjanli has become a symbol of the beginning of the liberation of Karabakh.

отойти на безопасное для гражданского населения расстояние. Пытаясь нейтрализовать оперативное превосходство Азербайджанской армии, армянское командование предприняло наступление силами частей, дислоцированных вблизи оккупированного города Агдере и села Мадагиз (нынешний Суговушан). Но атакующие части были отбиты. Противник потерял более 300 человек убитыми. На северо-восточном участке фронта освобождены село Сейсулан и стратегические высоты вокруг села Талыш, а на юге – стратегические высоты вблизи города Горадиз, в том числе высота Лелетепе. Село Джоджуг Марджанлы, постоянно подвергавшееся обстрелам с армянской стороны, получило возможность мирно жить. Здесь построили 100 домов и школу, восстановили водо- и газоснабжение, возвели мечеть по образцу Верхней мечети Гевхерага, расположенной в Шуше. Джоджуг Марджанлы стало символом начала освобождения Карабаха.



# 12 noyabr / november / ноября 2016



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV FÜZULİ RAYONUNUN ƏRAZİSİNDƏKİ ÖN XƏTDƏ YERLƏŞƏN KOMANDA İDARƏETMƏ MƏRKƏZİNƏ BAŞ ÇƏKİB. DÖVLƏT BAŞÇISINA CƏBHƏ XƏTTİNDƏKİ VƏZİYYƏT BARƏDƏ MƏRUZƏ EDİLİB.

PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN AND SUPREME COMMANDER-IN-CHIEF OF THE ARMED FORCES ILHAM ALIYEV VISITED THE COMMAND POST ON THE FRONT LINE IN FUZULI DISTRICT. THE HEAD OF STATE WAS UPDATED ABOUT THE SITUATION ON THE FRONT LINE.

ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ, ВЕРХОВНЫЙ ГЛАВНОКОМАНДУЮЩИЙ ВООРУЖЕННЫМИ СИЛАМИ ИЛЬХАМ АЛИЕВ ПОБЫВАЛ НА КОМАНДНОМ ПУНКТЕ УПРАВЛЕНИЯ, РАСПОЛОЖЕННОМ НА ПЕРЕДОВОЙ ЛИНИИ НА ТЕРРИТОРИИ ФИЗУЛИНСКОГО РАЙОНА. ГЛАВЕ ГОСУДАРСТВА БЫЛО ДОЛОЖЕНО ОБ ОБСТАНОВКЕ НА ЛИНИИ ФРОНТА.



Döyüşlərdə fərqlənmiş hərbçilər qarşısında çıxış edən Prezident Azərbaycan Ordusunun istənilən tapşırığı icra etməyə qadir olduğunu qeyd edib. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq", – deyə Ali Baş Komandan İlham Əliyev vurğulayıb.

Addressing the servicemen who had distinguished themselves in battle, the President noted that Azerbaijan's army was capable of performing any task. It ranked among the strongest armies in the world today. The April battles are a glorious military victory for Azerbaijan. Azerbaijan's army demonstrated its strength. Its combat capability was constantly growing. It was highly disciplined. Material support was at the highest level. The army was equipped with the most modern weapons, military equipment and ammunition. "We must and we will restore our territorial integrity. This is our ancestral and historical land, and we will return to all our lands that are still under occupation", stressed Supreme Commander-in-Chief Ilham Aliyev.
On the same day, President Aliyev was in the city of Horadiz, Fuzuli District, to inspect a settlement for internally displaced people, which had been built on lands

Выступая перед военнослужащими, отличившимися в боях, Президент отметил, что азербайджанская армия способна выполнить любую задачу. Сегодня она входит в число сильнейших армий. Апрельские бои – славная военная победа. Азербайджанская армия продемонстрировала свою силу. Её боеспособность постоянно растет. В ней высокая дисциплина. Армия оснащена самым современным вооружением, техникой и боеприпасами, стоимость которых составляет миллиарды долларов. «Мы должны восстановить и восстановим нашу территориальную целостность. Это – наша исконная, историческая земля, и мы вернемся на все наши земли, которые все еще находятся под оккупацией», – подчеркнул Ильхам Алиев. В тот же день Президент Ильхам Алиев осмотрел поселок для вынужденных переселенцев в городе Горадиз Физулинского района, построенный на землях,



Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlayan, insanları öz evlərindən didərgin salan və kütləvi qırğınlar törədən Ermənistanın hərəkətləri başər tarixində qara ləkədir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan

Armenia's actions, which has occupied the lands of Azerbaijan for 30 years, expelled people from their homes and carried out brutal massacres, have become a stain on humanity's history.

President of the Republic of Turkey Recep Tayyip Erdogan

Действия Армении, которая оккупировала земли Азербайджана в течение 30 лет, выдворяла людей из их домов и проводила жестокие массовые убийства, стали черным пятном в истории человечества.

Президент Турецкой Республики Реджеп Тайип Эрдоган

Elə həmin gün İlham Əliyev Füzuli rayonunun Horadiz şəhərində erməni işğalından azad edilmiş torpaqlarda məcburi köçkünlər üçün salınmış qəsəbədə yaradılmış şəraitlə tanış olub. Bu qəsəbə 400 ailə üçün nəzərdə tutulub. Hər evə içməli su, qaz, elektrik xətləri çəkilib. Burada məktəb, uşaq bağçası, tibb məntəqəsi mövcuddur. Bu, son dövrlərdə məcburi köçkünlər üçün salınmış 95-ci qəsəbədir, təkcə Füzuli rayonunda 16 belə qəsəbə salınıb. Bu günə qədər Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına 250 min məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilmişdir. Artıq heç kim çadır şəhərciyində yaşamır. Sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. Horadizdə köklü dəyişikliklər aparılıb. Bu gün Horadiz abad, inkişafda olan şəhərdir. Horadizdə bir çox sosial obyektlər inşa edilmişdir – Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Rəsm Qalereyası, Diaqnostika Mərkəzi, Gənclər Mərkəzi, Heydər Əliyev Mərkəzi, digər obyektlər. 25 meqavat gücündə yeni su elektrik stansiyası fəaliyyət göstərir. Qazlaşdırma 100 faizdir. Kəndlərin hamısı yollarla təmin edilib.

liberated from Armenian occupation. It was designed for 400 families and every house is supplied with water, gas and electricity. There is a school, a kindergarten and a medical centre in the settlement. This is the 95th refugee settlement built in recent years. There are 16 such settlements in Fuzuli District alone. A total of 250,000 IDPs had been provided with new houses and apartments at the expense of the State Oil Fund. There are no longer any tent camps. The last one being closed in 2007.
Horadiz has also changed dramatically. It is a comfortable, developing town, now with an Olympic Sports Complex, a Mugham Centre, an Art Gallery, a Diagnostic Centre, a Youth Centre, the Heydar Aliyev Centre and other facilities. A new 25 MW power plant is also in operation. The whole district is supplied with gas and other facilities.All villages have been provided with roads.

освобожденных от армянской оккупации. Он рассчитан на 400 семей. К каждому дому подведены вода, газ и электричество. Есть школа, детский сад, медицинский пункт. Это уже 95-й поселок для вынужденных переселенцев, из тех что возведены в последнее время. Только в Физулинском районе таких поселков 16. Как сообщил Президент Ильхам Алиев, на сегодняшний день за счет средств, выделенных из Государственного нефтяного фонда, новыми домами и квартирами обеспечены 250 тысяч вынужденных переселенцев. Больше никто не живет в палаточных городках. Последний из них был ликвидирован в 2007 году.
Кардинально изменился и Горадиз. Теперь это благоустроенный развивающийся город, в котором есть Олимпийский спортивный комплекс, Центр мугама, картинная галерея, Диагностический центр, Центр молодежи, Центр Гейдара Алиева, другие объекты. Работает новая гидроэлектростанция мощностью 25 мегаватт. В районе 100-процентная газификация. Ко всем сёлам проведены дороги.



# 11 aprel april апреля 2018



AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ KEÇİRİLDİ. "BU SEÇKİLƏRDƏ AZƏRBAYCAN XALQI SABİTLİYƏ, TƏHLÜKƏSİZLİYƏ, İNKİŞAFA, TƏRƏQQİYƏ SƏS VERMİŞ, SON 15 İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏRƏ YÜKSƏK QİYMƏT VERMİŞDİR. BÜTÜN BU UĞURLARI BİZ SİZİNLƏ BİRLİKDƏ QAZANDIQ", - DEYƏ YENİDƏN PREZİDENT SEÇİLMİŞ İLHAM ƏLİYEV BƏYAN ETDİ.

PRESIDENTIAL ELECTIONS HAVE BEEN HELD IN AZERBAIJAN."IN THE CURRENT ELECTIONS, THE AZERBAIJANI PEOPLE VOTED FOR STABILITY, SECURITY, DEVELOPMENT AND PROGRESS. THEY APPRECIATE THE WORK DONE OVER THE PAST 15 YEARS. WE HAVE ACHIEVED ALL OF THESE SUCCESSES TOGETHER WITH YOU", SAID NEWLY ELECTED PRESIDENT ILHAM ALIYEV.

В АЗЕРБАЙДЖАНЕ ПРОШЛИ ПРЕЗИДЕНТСКИЕ ВЫБОРЫ. «НА НЫНЕШНИХ ВЫБОРАХ АЗЕРБАЙДЖАНСКИЙ НАРОД ПРОГОЛОСОВАЛ ЗА СТАБИЛЬНОСТЬ, БЕЗОПАСНОСТЬ, РАЗВИТИЕ, ПРОГРЕСС, ДАЛ ВЫСОКУЮ ОЦЕНКУ РАБОТЕ, ПРОДЕЛАННОЙ ЗА ПОСЛЕДНИЕ 15 ЛЕТ. ВСЕХ ЭТИХ УСПЕХОВ МЫ ДОБИЛИСЬ ВМЕСТЕ С ВАМИ», – ЗАЯВИЛ ВНОВЬ ИЗБРАННЫЙ ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ.




Bülletenlərin sayılmasından sonra Mərkəzi Seçki Komissiyası seçici fəallığının 74 faiz olduğu barədə məlumat verdi. Seçki məntəqələrinə gələnlərin 86,02 faizi fəaliyyətdə olan dövlət başçısına səs verdi. Belə bir inamlı qələbə İlham Əliyevin yüksək siyasi nüfuzunu əyani surətdə təsdiq edərək, Azərbaycan qarşısında duran aktual sosial-iqtisadi və xarici siyasət məsələlərinin həllində onun xidmətlərinin dəyərləndirildiyinə dəlalət edir. Beynəlxalq müşahidəçilər seçki prosesinin yüksək səviyyədə təşkil olunduğunu və demokratikliyini, səsvermənin şəffaflıq və mötəbərliyini, həmçinin dünyada qəbul edilmiş bütün standartlara tam uyğunluğunu qeyd edirdilər.

Following the counting of ballots, the Central Election Commission announced that the final turnout was 74 percent. A total of 86.02 percent of those who came to the polling stations voted in support of the incumbent head of state. Such a landslide victory clearly confirms Ilham Aliyev's great political authority and testifies to a recognition of his merits in addressing the urgent socioeconomic and foreign policy issues that face Azerbaijan. International observers noted the excellent organisation and democratic nature of the electoral process, the transparency and accuracy of the voting, as well as its full compliance with all international standards.

После подсчета бюллетеней ЦИК сообщила, что итоговая явка составила 74%. В поддержку действующего главы государства отдали голоса 86,02% пришедших на избирательные участки. Такая убедительная победа наглядно подтверждает высокий политический авторитет Ильхама Алиева и свидетельствует о признании его заслуг в решении актуальных социально-экономических и внешнеполитических задач, стоящих перед Азербайджаном. Международные наблюдатели отметили прекрасную организацию и демократичность избирательного процесса, прозрачность и достоверность голосования, а также полное его соответствие всем принятым в мире стандартам.


20 may may мая 2018

ERMƏNİSTAN TƏRƏFİNİN TƏXRİBATI NƏTİCƏSİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞƏRUR RAYONUNDA BAŞ VERMİŞ ATIŞMA ZAMANI AZƏRBAYCAN ORDUSUNUN HƏRBİ QULLUQÇUSU HƏLAK OLUB.

A SERVICEMAN OF THE AZERBAIJANI ARMY WAS KILLED DURING A SHOOTOUT PROVOKED BY ARMENIAN FORCES IN SHARUR DISTRICT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC.

ВО ВРЕМЯ СПРОВОЦИРОВАННОЙ АРМЯНСКОЙ СТОРОНОЙ ПЕРЕСТРЕЛКИ В ШАРУРСКОМ РАЙОНЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ БЫЛ УБИТ ВОЕННОСЛУЖАЩИЙ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ.



Silahlı təxribat Nikol Paşinyan Ermənistanın baş naziri seçildikdən bir neçə gün sonra törədildi. Bundan əvvəl Qarabağ probleminin ATƏT-in Minsk qrupunun təklifləri əsasında həllini dəstəkləyən Paşinyan artıq Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsinin qızğın tərəfdarına çevrildi və dərhal yaxşı dərs aldı. Ermənistan silahlı qüvvələri birləşmələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun hissələri Ermənistan tərəfindən 1992-ci ildə işğal olunmuş Günnüt kəndini və bir sıra strateji yüksəklikləri azad etdilər. Hərbi ekspertlər bu əməliyyatı "Bakının son xəbərdarlığı" adlandırdılar.

The armed provocation took place a few days after Nikol Pashinyan's election as Prime Minister of Armenia. He had earlier advocated a solution to the Karabakh issue on the basis of the proposals developed by the OSCE Minsk Group, but he had become the most ardent supporter of Armenia's retention of the occupied Azerbaijani territories. However, he was taught a good lesson. In response to the provocative actions of the Armenian forces, units of the Azerbaijani army liberated the village of Gunnut and a number of strategic heights captured by Armenia back in 1992. Military experts described this operation as a final warning from Baku.

Вооруженная провокация последовала через несколько дней после избрания Никола Пашиняна премьер-министром Армении. До этого ратовавший за решение карабахского вопроса на основе предложений, выработанных Минской группой ОБСЕ, теперь он стал самым горячим сторонником присоединения к Армении оккупированных территорий Азербайджана. И тут же получил хороший урок. В ответ на провокационные действия подразделений ВС Армении части Азербайджанской армии освободили оккупированное село Гюннут и ряд стратегических высот, захваченных Арменией еще в 1992 году. Военные эксперты назвали эту операцию «последним предупреждением от Баку».


28
may
may
мая
2018

YÜZ İL ÖNCƏ, 1918-Cİ İL MAYIN 28-DƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ELAN EDİLDİ. BU, ŞƏRQDƏ İLK PARLAMENTLİ RESPUBLİKA İDİ.

A HUNDRED YEARS AGO, ON 28 MAY 1918, THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC WAS PROCLAIMED. IT WAS THE FIRST SECULAR PARLIAMENTARY STATE IN THE EAST.

СТО ЛЕТ НАЗАД, 28 МАЯ 1918 ГОДА, БЫЛА ПРОВОЗГЛАШЕНА АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА. ЭТО БЫЛО ПЕРВОЕ ПАРЛАМЕНТСКОЕ ГОСУДАРСТВО ВОСТОКА.



Azərbaycan ən nüfuzlu beynəlxalq reytinqlərdə fəxri yerləri tutur. Ölkəmiz dünya birliyinin məsuliyyətli və etibarlı üzvüdür. Dövlətimizin iqtisadiyyatı sürətlə inkişaf edir, sabitlik və təhlükəsizlik isə adi həyat tərzinə çevrilib. Burada regional və qlobal əhəmiyyət daşıyan layihələr gerçəkləşdirilir. Azərbaycanı digər ölkələrlə hava, dəmiryol, avtomobil və dəniz əlaqəsi birləşdirir və ölkəmiz artıq bir neçə ildir ki, beynəlxalq logistika qovşağı rolunda çıxış edir. Azərbaycan paytaxtında hər il dünyanın bütün qitələrindən qonaqları toplayan konfrans, forum, festival və idman yarışları keçirilir. Ölkəmiz MDB-nin ən həyatqabiliyyətli və perspektivli dövlətlərindən biridir.
Azərbaycan Respublikası Davos Ümumdünya İqtisadi Forumunda ən rəqabətədavamlı ölkələr siyahısında 35-ci yeri tutub. 2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2

Azerbaijan ranks highly in the most prestigious international ratings and is a responsible and reliable member of the international community. It is a rapidly developing economy where stability and security have become part of the daily routine. Projects of both regional and global significance are being implemented here. Azerbaijan has air, rail, highway and sea links with other countries and has successfully performed the functions of an international logistical hub for several years. Its capital annually hosts conferences, forums, festivals and sports competitions, bringing together visitors from across the world. This is one of the most resilient and promising states in the CIS.
The Republic of Azerbaijan was placed 35th in the list of the most competitive countries at the Davos World Economic Forum. From 2003

Азербайджан занимает почетные места в самых престижных международных рейтингах. Он ответственный и надежный член мирового сообщества. Это страна, экономика которой быстро развивается, а стабильность и безопасность стали привычными условиями жизни. Здесь реализуются проекты, имеющие региональное и глобальное значение. Азербайджан связан воздушным, железнодорожным, автомагистральным и морским сообщением с другими странами и уже несколько лет успешно выполняет функции международного логистического хаба. В столице Азербайджана ежегодно проходят конференции, форумы, фестивали, спортивные соревнования, собирающие гостей со всех континентов. Это одно из самых жизнеспособных и перспективных государств в СНГ.



1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

On 28 May 1918, an invaluable event took place in the life of the Azerbaijani people – the Azerbaijan Democratic Republic was formed, becoming the first parliamentary republic in the Muslim East. With its extensive experience of state building, the Azerbaijan Democratic Republic, which existed for only about two years, left an indelible mark on the history of national statehood, strengthened the feelings of freedom and independence in the hearts of the people and laid a solid foundation for the future independence of the republic.

President of the Republic of Azerbaijan Ilham Aliyev

28 мая 1918 года в жизни азербайджанского народа произошло неоценимое событие, была образована Азербайджанская Демократическая Республика, ставшая первой парламентской республикой на мусульманском Востоке. Своим богатым опытом государственного строительства Азербайджанская Демократическая Республика, просуществовавшая всего около двух лет, оставила неизгладимый след в истории национальной государственности, усилив в сердце народа чувства свободы и независимости, подготовила надежную основу для будущей независимости республики.

Президент Азербайджанской Республики Ильхам Алиев

dəfə artıb. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında isə 1,7 dəfə artım əldə edilib.
2017-ci ildə Azərbaycanın valyuta ehtiyatları 4,5 milyard dollar həcmində artaraq 42 milyard dollar təşkil edib. Adambaşına düşən investisiyaların həcminə görə Azərbaycan dünya liderləri sırasındadır. Ölkə iqtisadiyyatına 2003-2018-ci illər ərzində 231 milyard dollar həcmində investisiya yatırılıb.
Azərbaycanda energetika obyektləri sürətlə tikilir. 30 elektrik stansiyası istifadəyə verilib, onların ümumi gücü 2500 meqavat təşkil edir. 2018-ci ildə gücü 400 meqavat olan "Şimal-2" elektrik stansiyasının açılışı olub. Ölkə nəinki özünü elektrik enerjisi ilə tam təmin edir, həmçinin onu xaricə ixrac edir.
Azərbaycanda yaşayış məntəqələrinin qazlaşdırılma səviyyəsi 93 faizə çatıb. 2018-ci ildə bu rəqəm artıq 95 faiz təşkil edib.
2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyətə başladı. Bu nəqliyyat dəhlizinin yaradılması ilə yüklər Azərbaycan ərazisindən keçməklə Asiyadan Avropaya və əks istiqamətdə daşınmağa başladı. Azərbaycan ərazisindən keçən Şimal-Cənub nəqliyyat dəhlizi də uğurla fəaliyyət göstərir.

to 2018, its economy has grown by a factor of 3.2. The industrial and agricultural sectors have registered 2.6 and 1.7 times growth respectively.
In 2017, Azerbaijan's foreign exchange reserves increased by 4.5 billion dollars, totalling 42 billion dollars. And Azerbaijan is among the world's leaders for investments per capita. Over the last 14 years, from 2003 to 2018, 231 billion dollars has been invested in the country's economy.
There has been extensive construction of energy facilities here. 30 power plants, with a combined capacity of 2,500 MW have been built over the past 14 years. The 400 MW Shimal-2 power plant will be opened in 2018. The country is not only self-sufficient in electricity, it also exports it. 93 percent of settlements in Azerbaijan are supplied with gas. The figure will be 95 percent by the end of 2018.
In 2017, the Baku-Tbilisi-Kars railway began to operate. This transport corridor delivers goods from Asia and Europe and back.
The North-South transport corridor, which also passes through Azerbaijan, is also functioning.

Азербайджанская Республика заняла 35-е место в списке самых конкурентоспособных стран на Давосском всемирном экономическом форуме. С 2003 по 2018 год экономика Азербайджанской Республики выросла в 3,2 раза. В промышленной сфере достигнут рост в 2,6 раза, в сельском хозяйстве – в 1,7.
В 2017 году валютные резервы Азербайджана выросли на 4,5 миллиарда долларов и составили в итоге 42 миллиарда долларов. По объему инвестиций на душу населения Азербайджан находится среди мировых лидеров. В экономику страны с 2003 по 2018 год были сделаны инвестиции в размере 231 миллиарда долларов.
В Азербайджане активно возводятся энергетические объекты. Было построено 30 электростанций, суммарная мощность которых составляет 2500 мегаватт. В 2018 году была открыта электростанция «Шимал-2», мощность которой 400 мегаватт. Страна не только полностью обеспечивает электроэнергией себя, но и экспортирует её за рубеж.
Уровень газификации населенных пунктов в 2018 году составил 95 процентов.
В 2017 году начала работать железная дорога Баку-Тбилиси-Карс. С созданием этого транспортного коридора через территорию Азербайджана пошли грузы из Азии и Европы и обратно. Четко функционирует транспортный коридор Север-Юг, также проходящий через Азербайджан.



# 26 iyun june июня 2018





AZƏRBAYCANIN PAYTAXTI BAKIDA, AZADLIQ MEYDANINDA AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ HƏRBİ PARAD KEÇİRİLDİ.

A MILITARY PARADE DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE ARMED FORCES OF THE REPUBLIC OF AZERBAIJAN TOOK PLACE ON AZADLIG SQUARE IN BAKU, THE CAPITAL OF AZERBAIJAN.

В СТОЛИЦЕ АЗЕРБАЙДЖАНА – БАКУ – НА ПЛОЩАДИ АЗАДЛЫГ СОСТОЯЛСЯ ВОЕННЫЙ ПАРАД, ПОСВЯЩЕННЫЙ 100-ЛЕТИЮ СОЗДАНИЯ ВООРУЖЕННЫХ СИЛ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ.




Paradda güc nazirliklərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, dövlət xadimləri və xarici qonaqların dayandığı tribunanın önündən hərbi təyinatlı təhsil müəssisələrinin, ordu bölmələrinin və xüsusi təyinatlı qüvvələrin parad heyəti keçdi. Paradda müasir zirehli texnika nümunələri, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə vasitələri nümayiş etdirildi. Döyüş təyyarələrinin pilotları səmada öz məharətini göstərdi, Bakı buxtasında isə hərbi dəniz qüvvələrinin gəmiləri düzülmüşdü. Azərbaycan Ordusu həm müasir

The parade featured some 4,000 military and law enforcement agencies' personnel, as well as the Armed Forces of the Republic of Turkey. Parading before President Ilham Aliyev, First Lady Mehriban Aliyeva, country's senior officials and foreign guests were ceremonial units from educational institutions, army units and special forces detachments. Modern armoured vehicles, missile and artillery installations and air defence systems were also displayed in the parade.
Pilots of combat aircraft and helicopters demonstrated their skills in the sky above the square, while ships of the Naval Forces lined up in Baku Bay.
The Azerbaijani army is fully professional in its operational use of

В параде приняли участие около 4000 человек личного состава силовых министерств, а также Вооруженных сил Турецкой Республики. Перед трибуной, на которой присутствовали Президент Азербайджанской Республики Ильхам Алиев, первая леди Мехрибан Алиева, государственные деятели, зарубежные гости, прошли парадные расчеты учебных заведений, армейских подразделений и Сил специального назначения. Были продемонстрированы образцы современной бронетехники, ракетные и артиллерийские установки, средства ПВО. Пилоты боевых самолётов показали свое мастерство в воздухе, а в акватории Бакинского залива выстроились корабли военно-морских сил.




«Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Azərbaycan Respublikasının Prezidenti,
Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev

The day will come when Azerbaijan's flag, raised over the lands that still remain under occupation, will be delivered to Azadlig Square following their liberation and displayed at a military parade. We must bring this sacred day closer and closer.

President of the Republic of Azerbaijan
Supreme Commander-in-Chief of the Armed Forces
Ilham Aliyev

Наступит день, когда азербайджанский флаг, поднятый после освобождения на остающихся сегодня под оккупацией землях, будет доставлен на площадь Азадлыг и продемонстрирован на военном параде. Мы должны приближать и приближаем этот священный день.»

Президент Азербайджанской Республики,
Верховный Главнокомандующий Вооруженными силами
Ильхам Алиев

silah və texniki vasitələrlə təchizat, həm də təhlükəsizlik baxımından peşəkarlıq meyarlarına tamamilə uyğundur. Sülhü və vətəndaşların təhlükəsizliyini etibarlı şəkildə təmin edən ordumuz Ermənistan tərəfindən həyata keçirilən təcavüz cəhdlərinə qarşı əks-əməliyyatlar zamanı öz gücünü dəfələrlə nümayiş etdirib. Özünün uğurlu əməliyyatları ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin layiqli olaraq dünyanın ən güclü orduları sırasına daxil edildiyini sübuta yetirib.
Azərbaycan Ordusu quru qoşunları, hərbi-hava və hərbi-dəniz qüvvələrindən ibarətdir. Silahlı Qüvvələrin Ali Baş Komandanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.
Azərbaycan Ordusu qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə hər an hazırdır.

modern weaponry and technical facilities and in its combat capability. Our country is a reliable protector of the peace and tranquillity of Azerbaijani citizens and has repeatedly demonstrated its strength in the course of operations to counter Armenia's aggression. Their successes confirm that the Armed Forces of the Republic of Azerbaijan are deservedly placed among the strongest armies in the world.
Azerbaijan's army consists of ground, air and naval forces. President of the Republic of Azerbaijan Ilham Aliyev is the Supreme Commander-in-Chief of the Armed Forces.
Azerbaijan's army is always ready to fulfill the tasks assigned to it.

Армия Азербайджана полностью отвечает профессиональным критериям как в области оснащения современным оружием и техническими средствами, так и по уровню боеспособности. Она надежно охраняет мир и покой граждан и неоднократно демонстрировала свою мощь в ходе контропераций против попыток агрессии со стороны Армении. Своими успешными действиями она подтвердила, что Вооруженные силы Азербайджанской Республики заслуженно включены в число сильнейших армий мира.
Армия Азербайджана состоит из сухопутных войск, военно-воздушных сил и военно-морских сил. Верховный Главнокомандующий Вооруженными силами – Президент Азербайджанской Республики Ильхам Алиев.
Армия Азербайджана всегда готова выполнить поставленные перед ней задачи.




15
sentyabr
september
сентября
2018

AZƏRBAYCAN PAYTAXTINDA QAFQAZ İSLAM ORDUSU TƏRKİBİNDƏ AZƏRBAYCAN VƏ TÜRK HƏRBİ HİSSƏLƏRİ TƏRƏFİNDƏN BAKININ İŞĞALÇILARDAN AZAD EDİLMƏSİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ PARAD KEÇİRİLİB. PARADI AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN QƏBUL EDİRDİLƏR.

A PARADE DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE LIBERATION OF BAKU BY THE CAUCASIAN ISLAMIC ARMY CONTAINING AZERBAIJANI AND TURKISH MILITARY UNITS WAS HELD IN THE CAPITAL OF AZERBAIJAN. IT WAS OBSERVED BY PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ILHAM ALIYEV AND PRESIDENT OF THE REPUBLIC OF TURKEY RECEP TAYYIP ERDOGAN.

В СТОЛИЦЕ АЗЕРБАЙДЖАНА СОСТОЯЛСЯ ПАРАД, ПОСВЯЩЕННЫЙ 100-ЛЕТИЮ ОСВОБОЖДЕНИЯ БАКУ АЗЕРБАЙДЖАНСКИМИ И ТУРЕЦКИМИ.ЧАСТЯМИ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ ОТ ОККУПАНТОВ. ЕГО ПРИНИМАЛИ ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМ АЛИЕВ И ПРЕЗИДЕНТ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ РЕДЖЕП ТАЙИП ЭРДОГАН.



Hərbçilərə və qonaqlara müraciət edən Azərbaycan Prezidenti dedi: “Bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.” Öz növbəsində Türkiyə Prezidenti qeyd etdi: “Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik”.

Addressing the troops and visitors, the President of Azerbaijan said: “It is a historic day today, the day of Turkish-Azerbaijani unity and Turkish-Azerbaijani brotherhood. We, representatives of this generation, honour and will continue to honour this day. The whole world can see today that Turkey and Azerbaijan are together, that our indestructible friendship and brotherhood are eternal.” The President of Turkey said: “The joy of Azerbaijan is our joy, its pride is our pride, and grief, pain and problems are ours too. If Azerbaijan is sad, so are we. If Azerbaijan is happy, we rejoice in that too. The most difficult problem for Azerbaijan, the Nagorno-Karabakh issue, is equally a difficult problem for us. Turkey will fully support Azerbaijan's efforts to resolve the problem”.

Обращаясь к построенным войскам и гостям, Президент Азербайджана сказал: «Сегодня исторический день, день турецко-азербайджанского единства, турецко-азербайджанского братства. Мы, представители этого поколения, чтим и будем чтить этот день. Сегодня весь мир видит, что Турция и Азербайджан вместе, что наша нерушимая дружба и братство вечны». В свою очередь, Президент Турции отметил: «Радость Азербайджана – наша радость, гордость его – наша гордость, а горе, боль и проблемы – наши проблемы. Если Азербайджан опечален, это опечалит и нас, если он радуется, то радуемся и мы. Самая тяжелая для Азербайджана проблема – нагорно-карабахский вопрос в одинаковой степени является тяжелой проблемой и для нас. Турция до конца будет поддерживать усилия Азербайджана по разрешению проблемы».


2 aprel april апреля 2019

AZƏRBAYCAN PREZIDENTİ HƏRBİ QULLUQÇULARIN YAŞAYIŞ, İŞ VƏ TƏLİM ŞƏRAİTİNƏ XÜSUSİ DİQQƏT YETİRİR. YENİDƏNQURMA PROSESİ DEMƏK OLAR Kİ, BÜTÜN HƏRBİ HİSSƏLƏRİ ƏHATƏ EDİB. TƏKCƏ 2018-Cİ İLDƏ 300-DƏN ARTIQ HƏRBİ QULLUQÇUYA YENİ MƏNZİLLƏR VERİLİB.

THE PRESIDENT OF AZERBAIJAN PAYS CLOSE ATTENTION TO THE LIVING, WORKING AND TRAINING ENVIRONMENT FOR THE SERVICEMEN. ALMOST ALL MILITARY UNITS ARE UNDERGOING A PROCESS OF RECONSTRUCTION. IN 2018 ALONE, MORE THAN 300 SERVICEMEN RECEIVED NEW APARTMENTS.

ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА УДЕЛЯЕТ САМОЕ ПРИСТАЛЬНОЕ ВНИМАНИЕ УСЛОВИЯМ, В КОТОРЫХ ЖИВУТ, РАБОТАЮТ И ОБУЧАЮТСЯ ВОЕННОСЛУЖАЩИЕ. ПРОЦЕСС РЕКОНСТРУКЦИИ ЗАТРОНУЛ ПРАКТИЧЕСКИ ВСЕ ВОИНСКИЕ ЧАСТИ. ТОЛЬКО В 2018 ГОДУ БОЛЕЕ 300 ВОЕННОСЛУЖАЩИХ ПОЛУЧИЛИ НОВЫЕ КВАРТИРЫ.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində oldu, əskər və zabitlərin döyüş hazırlığını, eləcə də onların yaşadığı şəraiti yoxladı. Prezident yenidən qurulmuş qərargah binası, yeməkxana, əskər yataqxanası, təlim mərkəzlərinə baxış keçirdi. Müdafiə naziri Ali Baş Komandana burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanaların inşa olunduğu barədə məruzə etdi. Sonra Prezident İlham Əliyev xüsusi təyinatlıların döyüş hazırlığını izləyib.

President of the Republic of Azerbaijan and Supreme Commander-in-Chief of the Armed Forces Ilham Aliyev visited a military unit of the Special Forces of the Ministry of Defence on 2 April 2019 to examine combat training and living conditions of soldiers and officers.
The President inspected the unit’s reconstructed headquarters, the canteen, hostel and training centres. The Minister of Defence reported to the Supreme Commander-in-Chief that houses had been built for the families of servicemen and hostels complying with all modern requirements for single people. The head of state then viewed the training of Special Forces fighters.

Президент Азербайджанской Республики, Верховный Главнокомандующий Вооруженными силами Ильхам Алиев посетил 2 апреля 2019 года Н-скую воинскую часть Сил специального назначения Министерства обороны и проинспектировал условия боевой подготовки и жизни солдат и офицеров.
Президент осмотрел реконструированные здания штаба части, столовой, солдатского общежития, учебных центров. Министр обороны доложил Главнокомандующему, что для семейных военнослужащих построены жилые дома, а для холостых – общежития, отвечающие всем современным требованиям. Затем глава государства ознакомился с тем, как идут тренировки бойцов спецназа.

# 4 oktyabr october октября 2019



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "VALDAY" BEYNƏLXALQ DİSKUSSİYA KLUBUNUN XVI İCLASININ PLENAR SESSİYASINDA ÇIXIŞ EDİB. HƏMİN TƏDBİRDƏ 40 ÖLKƏNİ TƏMSİL EDƏN 150-DƏN ARTIQ NÜMAYƏNDƏ İŞTİRAK EDİRDİ.

PRESIDENT ILHAM ALIYEV ADDRESSED A PLENARY SESSION OF THE 16TH MEETING OF THE VALDAI INTERNATIONAL DISCUSSION CLUB, WHICH WAS ATTENDED BY OVER 150 REPRESENTATIVES FROM 40 COUNTRIES.

ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ ВЫСТУПИЛ НА ПЛЕНАРНОЙ СЕССИИ XVI ЗАСЕДАНИЯ МЕЖДУНАРОДНОГО ДИСКУССИОННОГО КЛУБА «ВАЛДАЙ», В КОТОРОМ ПРИНЯЛИ УЧАСТИЕ СВЫШЕ 150 ПРЕДСТАВИТЕЛЕЙ ИЗ 40 СТРАН.




Azərbaycan Ordusunun oktyabrın 18-də axşam saatlarında Qubadlı-Zəngilan istiqamətində başladığı hücum ermənilər üçün gözlənilməz oldu. Oktyabrın 19-da Cəbrayıl rayonunun 13 kəndi, oktyabrın 20-də günün birinci yarısında Füzuli rayonunun 6 kəndi, Cəbrayıl rayonunun 7 kəndi və Xocavənd rayonunun 5 kəndi işğaldan azad olundu. Əsas zərbənin burada endirildiyi qənaətinə gələn erməni komandanlığı qüvvə toplamağa başladı. Lakin xüsusi təyinatlı və motoatıcı mobil hissələr əsas yollardan kənarda yerləşən təpələrlə irəliləyərək Zəngilan şəhərinə yaxınlaşdılar, sürətli həmlə nəticəsində şəhəri və rayonun daha 6 kəndini azad etdilər. Oktyabrın 21-də isə 20 kənd və Azərbaycanın qərbindəki ən uzaq dəmiryol stansiyası olan Mincivan qəsəbəsi azad olundu.

An Azerbaijani army offensive towards Gubadli-Zangilan launched on the evening of 18 October caught the Armenian side unawares. Thirteen villages of the Jabrayil District were liberated on 19 October, a further six villages of the Fuzuli District, seven villages of the Jabrayil District and five villages of Khojavand District were liberated in the first half of the day on 20 October. The Armenian command believed that this was the main assault and began to assemble its forces there, but mobile units of the special forces and motorized riflemen, moving off the main roads and along the hills, reached the city of Zangilan and liberated it with six other villages in the region in a swift attack. Twenty villages and the settlement of Minjivan, the westernmost railway station in Azerbaijan, were liberated on 21 October.

Начатое вечером 18 октября наступление Азербайджанской армии в Губатлинско-Зангеланском направлении оказалось неожиданным для армянской стороны. 19 октября были освобождены 13 сел Джебраильского района, в первой половине дня 20 октября 6 сел Физулинского, 7 сел Джебраильского и 5 сел Ходжавендского районов. Армянское командование решило, что главный удар наносится здесь, и стало собирать силы. Но на деле мобильные части спецназа и мотострелков, двигаясь по холмам в стороне от основных дорог, вышли к городу Зангелан и стремительным броском освободили его и еще 6 сел района. 21 октября были освобождены 20 сел и поселок Миндживан – самая западная железнодорожная станция Азербайджана.


22
oktyabr
october
октября
2020



AZƏRBAYCAN ORDUSU ERMƏNİSTANLA SƏRHƏDDƏ YAXINLAŞIB. OKTYABRIN 22-DƏ SƏHƏRƏ YAXIN FÜZULİ RAYONUNUN 4, ELƏCƏ DƏ CƏBRAYIL RAYONUNUN 4 KƏNDİ İŞĞALDAN AZAD EDİLİB. AZƏRBAYCAN QOŞUNLARI HƏMÇİNİN ZƏNGİLAN RAYONUNUN 13 KƏNDİNİ VƏ AĞBƏND QƏSƏBƏSİNİ AZAD EDİBLƏR. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ AĞBƏNDİN AZAD OLUNMASI İLƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASININ DÖVLƏT SƏRHƏDİ ÜZƏRİNDƏ TAM NƏZARƏTİN TƏMİN OLUNDUĞUNU QEYD EDİB.

THE AZERBAIJANI ARMY REACHED THE BORDER WITH ARMENIA. BY THE MORNING OF 22 OCTOBER, FOUR MORE FUZULI DISTRICT VILLAGES AND FOUR IN JABRAYIL DISTRICT WERE LIBERATED. AZERBAIJANI UNITS ALSO LIBERATED 13 VILLAGES AND THE SETTLEMENT OF AGHBEND IN ZANGILAN DISTRICT. PRESIDENT ALIYEV NOTED THAT THE LIBERATION OF AGHBEND ESTABLISHED FULL CONTROL OF THE STATE BORDER WITH THE ISLAMIC REPUBLIC OF IRAN.

АЗЕРБАЙДЖАНСКАЯ АРМИЯ ВЫШЛА НА ГРАНИЦУ С АРМЕНИЕЙ. К УТРУ 22 ОКТЯБРЯ БЫЛИ ОСВОБОЖДЕНЫ 4 СЕЛА ФИЗУЛИНСКОГО РАЙОНА И 4 СЕЛА ДЖЕБРАИЛЬСКОГО РАЙОНА. ТАКЖЕ АЗЕРБАЙДЖАНСКИЕ ЧАСТИ ЗАНЯЛИ 13 СЕЛ И ПОСЕЛОК АГБЕНД ЗАНГЕЛАНСКОГО РАЙОНА. ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ ОТМЕТИЛ, ЧТО СО ВЗЯТИЕМ АГБЕНДА ОБЕСПЕЧЕН ПОЛНЫЙ КОНТРОЛЬ НАД ГОСУДАРСТВЕННОЙ ГРАНИЦЕЙ АЗЕРБАЙДЖАНА И ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН.

AZƏRTAC-ın məlumatına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib. Görüş zamanı Prezident İlham Əliyev Şərəf Malkoçun diqqətini Ermənistanın mülki əhaliyə qarşı törətdiyi hərbi cinayətlərə yönəldib: “Bununla bərabər, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur. Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım

AZERTAC reported that President Ilham Aliyev received Saraf Malkoc, Chief Ombudsman of the Republic of Turkey. During the meeting, President Aliyev drew Mr. Malkoc’s attention to the war crimes committed by Armenia against the civilian population. ”All our frontline cities and villages are shelled on a daily basis. According to information provided to me today, between 6 and 8am, 190 shells landed on Tartar District alone. Ninety shells were fired at the Aghdam Region. There have been days when 2,000 shells fell on Tartar District. In other words, they want to destroy our cities and break the will of the Azerbaijani people. But they cannot achieve that, which is why they become even more furious. We are taking revenge on the battlefield. We have never taken and will not take any steps against the civilian

АЗЕРТАДЖ сообщил, что Президент Азербайджана Ильхам Алиев принял главного омбудсмена Турецкой Республики Шарафа Малкоча. Во время состоявшейся беседы Президент Ильхам Алиев обратил внимание Шарафа Малкоча на совершенные Арменией военные преступления против гражданского населения. «Ежедневно обстреливаются все наши прифронтовые города и села. По предоставленной мне сегодня информации, с 6 до 8 утра только на территорию Тертерского района упало 190 снарядов. По Агдамскому району было выпущено 90 снарядов. Были дни, когда на Тертерский район падало 2 тысячи снарядов. То есть они хотят разрушить наши города, сломить волю азербайджанского народа. Но они не могут этого добиться, поэтому все больше свирепствуют. Мы мстим на поле боя.

Cənab Prezident, müharibənin fəal fazasında təmkin və qətiyyət nümayiş etdirməyiniz hamı tərəfindən yüksək qiymətləndirilir. Biz Azərbaycanın Böyük Britaniya parlamentindəki dostları olaraq Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyimizi bir daha bəyan edirik. Biz azərbaycanlı məcburi köçkünlərinin öz doğma yurdlarına qayıdacağı günü səbirsizliklə gözləyirik.

Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü,
Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkmən

Mr. President, your restraint and determination in the active phase of the war are highly appreciated by everyone. As friends of Azerbaijan in the British Parliament, we declare once again that we will continue to make every effort to communicate Azerbaijan's fair position to the world. We look forward to the day when Azerbaijani IDPs will return to their homelands.

Bob Blackman, member of the House of Commons
of the British Parliament, Chairman of the Friendship Group with Azerbaijan

Господин Президент, Ваша сдержанность и решимость в активной фазе войны высоко оцениваются всеми. Являясь друзьями Азербайджана в парламенте Великобритании, мы еще раз заявляем, что и впредь приложим все усилия для доведения до мира справедливой позиции Азербайджана. Мы с нетерпением ждем того дня, когда азербайджанские вынужденные переселенцы вернутся в родные края.

Член Палаты общин парламента Великобритании,
председатель группы дружбы с Азербайджаном Боб Блэкмен





atmamışıq və atmayacağıq", – deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçısı ermənilərin işğal olunmuş rayonlardakı vandalizmindən də söz açdı: "Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik. O şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb. Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizin binaları dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən demək olar ki, yalnız daşlar qalıb".

population, the President said. He also spoke about the facts of Armenian vandalism in the occupied territories. Sight of the cities and villages liberated from occupation shows what kind of barbarians we have been facing. There is not a single sound building in most of those cities and villages. They have completely destroyed the city of Fuzuli. We could not find a single sound building to hoist the flag of Azerbaijan, but a ceremony was held eventually. Buildings in all our villages have been destroyed. Our mosques have been destroyed. The whole world saw on the Internet yesterday the footage of a destroyed mosque in one of Zangilan's villages. They kept pigs there. They have desecrated our mosques. They have destroyed all our historical sites. One might say that only stones remain from the houses".

Мы никогда не предпринимали и не будем предпринимать каких-либо шагов против гражданского населения», - сказал Президент Азербайджана. Он также рассказал о фактах вандализма армян в оккупированных районах: «Сегодня картина освобожденных от оккупации городов, сел показывает, с какими варварами мы столкнулись. В этих городах, селах, в большинстве из них, не осталось ни одного целого здания. Они полностью разрушили город Физули. Мы не могли найти там ни одного уцелевшего здания, чтобы водрузить флаг Азербайджана, но, наконец, и эта церемония была проведена. Здания во всех наших селах разрушены, наши мечети разрушены. Вчера весь мир увидел в Интернете кадры разрушенной мечети в одном из сел Зангилана. Они содержали там свиней. Они осквернили наши мечети. Они разрушили все наши исторические памятники. От домов, можно сказать, остались только камни».


25
oktyabr
october
октября
2020

AĞDƏRƏ, XOCAVƏND, FÜZULİ, HADRUT, QUBADLI VƏ LAÇIN İSTİQAMƏTLƏRİNDƏ DÖYÜŞ ƏMƏLİYYATLARI MÜXTƏLİF İNTENSİVLİKLƏ DAVAM EDİB. QUBADLI ŞƏHƏRİ, HƏMÇİNİN ZƏNGİLAN, CƏBRAYIL VƏ QUBADLI RAYONLARININ BİR NEÇƏ KƏNDİ İŞĞALDAN AZAD OLUNUB.

MILITARY ACTION TOWARDS AGHDARA, KHOJAVAND, FUZULI, HADRUT, GUBADLI AND LACHIN CONTINUED WITH VARYING DEGREES OF INTENSITY. THE CITY OF GUBADLI, AS WELL AS SEVERAL VILLAGES OF ZANGILAN, JABRAYIL AND GUBADLI DISTRICTS, HAVE BEEN LIBERATED.

БОЕВЫЕ ДЕЙСТВИЯ НА АГДЕРИНСКОМ, ХОДЖАВЕНДСКОМ, ФИЗУЛИНСКОМ, ГАДРУТСКОМ, ГУБАДЛИНСКОМ И ЛАЧИНСКОМ НАПРАВЛЕНИЯХ ПРОДОЛЖАЛИСЬ С РАЗЛИЧНОЙ ИНТЕНСИВНОСТЬЮ. ОСВОБОЖДЕНЫ ГОРОД ГУБАДЛЫ, А ТАКЖЕ НЕСКОЛЬКО СЕЛ ЗАНГИЛАНСКОГО, ДЖЕБРАИЛЬСКОГО И ГУБАДЛИНСКОГО РАЙОНОВ.




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib. Çıxışının sonunda Ali Baş Komandan dedi: "Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq".

An operational meeting chaired by President of the Republic of Azerbaijan and Supreme Commander-in-Chief Ilham Aliyev was held at the Central Command Post. It was joined by officials from the Ministry of Defence and commanders of units deployed on the front-line. Closing his speech, the Supreme Commander-in-Chief said, "I am sure that Azerbaijan will restore its territorial integrity. We are fighting on our own land. Justice is on our side, international law is on our side, historical justice is on our side. We must restore our territorial integrity; we must drive the occupiers out of our lands. We must ensure the sovereignty of our country. I am confident that we will achieve this".

В Центральном командном пункте Министерства обороны под руководством Президента Азербайджанской Республики, Верховного главнокомандующего Ильхама Алиева прошло оперативное совещание с участием руководящего состава Министерства обороны и командиров объединений, дислоцированных во фронтовой зоне. Заканчивая свое выступление, Верховный главнокомандующий сказал: «Я уверен, что Азербайджан восстановит свою территориальную целостность. Мы сражаемся на своей земле. Справедливость на нашей стороне, международное право на нашей стороне, историческая справедливость на нашей стороне. Мы должны восстановить свою территориальную целостность, мы должны прогнать оккупантов с наших земель, должны обеспечить суверенитет нашей страны. Уверен, что мы добьемся этого».


26
oktyabr
october
октября
2020



SAAT 8:00-DA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN QOŞUNLARI ARASINDA ATƏŞKƏS REJİMİ HAQQINDA ÜÇÜNCÜ RAZILAŞMA QÜVVƏYƏ MİNİB. LAKİN AZƏRBAYCAN MÜDAFİƏ NAZİRLİYİNİN MƏLUMATINA ƏSASƏN, ARTIQ SAAT 08:05-DƏ ERMƏNİSTAN TƏRƏFİ SƏFİYAN KƏNDİNİ VƏ TƏRTƏR ŞƏHƏRİNİ ATƏŞƏ TUTUB. ATƏŞKƏS POZULUB.

AT 8:00, THE THIRD CEASEFIRE AGREEMENT BETWEEN AZERBAIJANI AND ARMENIAN TROOPS CAME INTO EFFECT. HOWEVER, AS REPORTED BY THE MINISTRY OF DEFENCE OF AZERBAIJAN, AS EARLY AS 08:05, THE ARMENIAN SIDE OPENED ARTILLERY FIRE ON THE VILLAGE OF SAFIYAN AND THE CITY OF TARTAR, THUS BREAKING THE CEASEFIRE.

В 8:00 ВСТУПИЛО В ДЕЙСТВИЕ ТРЕТЬЕ СОГЛАШЕНИЕ О РЕЖИМЕ ПРЕКРАЩЕНИЯ ОГНЯ МЕЖДУ ВОЙСКАМИ АЗЕРБАЙДЖАНА И АРМЕНИИ. ОДНАКО, КАК СООБЩИЛО МИНИСТЕРСТВО ОБОРОНЫ АЗЕРБАЙДЖАНА, УЖЕ В 8:05 АРМЯНСКАЯ СТОРОНА ОТКРЫЛА АРТИЛЛЕРИЙСКИЙ ОГОНЬ ПО СЕЛУ САФИЯН И ГОРОДУ ТЕРТЕР. ПЕРЕМИРИЕ БЫЛО СОРВАНО.

Günün ikinci yarısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan, Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndlərinin işğaldan azad olunması barədə məlumat verdi. Atəşkəs barədə razılaşmanın pozulmasına toxunan dövlət başçısı bildirdi: "Atəşkəs rejiminə gəldikdə, ayın 10-da birinci dəfə atəşkəs qüvvəyə mindi. Mənim mövqeyim elə idi ki, bu, humanitar xarakter daşımalıdır və həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün biz buna razılıq vermişik. Ancaq Ermənistan bir gün keçməmiş bu atəşkəsi kobudcasına pozdu, özü də namərd şəkildə, gecə vaxtı Gəncəni bombaladı. Ondan sonra oktyabrın 17-də yeni atəşkəs elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan bunu pozdu. İndi bu gün səhər saat 8-dən yeni bir təklif verildi. Ancaq səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı".

In the afternoon, President Ilham Aliyev announced the liberation of the villages of Padar, Afandilar, Yusifbeyli, Chaytumas, Khanlig, Sariyatag, Mollaburkhan, Alibeyli I, Alibeyli II, Rebend, Yenikend, Govshutlu, Sofulu, Dagh-Mashanli, Kurdlyar, Khavisli, Chelebi. On the same day, the President addressed the nation. Referring to the disrupted ceasefire agreement, the President said, "The first ceasefire was declared on 10 October. My position was that it should be of a humanitarian nature. We agreed to that in order to exchange bodies, hostages and prisoners. However, less than a day later, Armenia flagrantly and insidiously violated the ceasefire by bombing Ganja at night. Then, on 17 October, a new ceasefire was declared. Again, two minutes later Armenia violated it. This morning at 8 o'clock, a new proposal came in. I enquired at 9 o'clock in the morning and was informed that Armenia had violated the ceasefire a few minutes later, as Tartar District had been shelled again".

Во второй половине дня Президент Азербайджана Ильхам Алиев объявил об освобождении сел Падар, Эфендиляр, Юсифбейли, Чайтумас, Ханлыг, Сарыятаг, Моллабурхан, Алыбейли I, Алыбейли II, Рабенд, Еникенд, Гофшутлу, Софулу, Даг-Машанлы, Кюрдляр, Хавыслы, Челеби. В тот же день он обратился к народу. Касаясь сорванного соглашения о перемирии, Президент сказал: «В первый раз прекращение огня вступило в силу 10 октября. Моя позиция заключалась в том, что это должно носить гуманитарный характер, и мы согласились на это, чтобы обменяться телами погибших, заложниками, пленными. Однако менее чем через день Армения грубо, к тому же коварным образом нарушила режим прекращения огня и ночью разбомбила Гянджу. Затем, 17 октября, было объявлено новое прекращение огня. И снова, спустя две минуты, Армения его нарушила. Сегодня утром в 8 часов поступило новое предложение. Но в 9 часов утра я поинтересовался, спустя несколько минут Армения нарушила режим прекращения огня, и вновь был обстрелян Тертерский район».

# 28 oktyabr october октября 2020





DÖYÜŞ ƏMƏLİYYATLARI AĞDƏRƏ, XOCAVƏND, FÜZULİ, ZƏNGİLAN VƏ QUBADLI İSTİQAMƏTLƏRİNDƏ DAVAM EDİB. 14 KƏND İŞĞALDAN AZAD OLUNUB. AZƏRBAYCAN HƏRBİ HİSSƏLƏRİNİN FƏAL HƏMLƏ FƏNDİNƏ ALDANAN ERMƏNİ ORDUSU BÜTÜN QÜVVƏLƏRİNİ LAÇINDA CƏMLƏŞDİRƏRƏK, CƏBHƏNİN DİGƏR SAHƏLƏRİNİ MÜDAFİƏSİZ QOYDU. HƏRBİ EKSPERTLƏR AZƏRBAYCAN ORDUSUNUN BU ALDADICI MANEVRİNİ "KOBRANIN SIÇRAYIŞI" ADLANDIRDILAR.

COMBAT OPERATIONS CONTINUED IN THE AREAS OF AGHDARA, KHOJAVAND, FUZULI, ZANGILAN AND GUBADLI. FOURTEEN VILLAGES WERE LIBERATED. MISLED BY DELIBERATE MOVEMENTS OF AZERBAIJANI UNITS, THE ARMENIAN ARMY CONCENTRATED ITS UNITS NEAR LACHIN, LEAVING OTHER SECTIONS OF THE FRONT EXPOSED. MILITARY EXPERTS DESCRIBED THIS FEINT BY THE AZERBAIJANI ARMY AS A "COBRA DASH".

БОЕВЫЕ ОПЕРАЦИИ ПРОДОЛЖАЛИСЬ НА АГДЕРИНСКОМ, ХОДЖАВЕНДСКОМ, ФИЗУЛИНСКОМ, ЗАНГИЛАНСКОМ И ГУБАДЛИНСКОМ НАПРАВЛЕНИЯХ. БЫЛИ ОСВОБОЖДЕНЫ 14 СЕЛ. ОБМАНУТАЯ НАРОЧИТОЙ АКТИВНОСТЬЮ АЗЕРБАЙДЖАНСКИХ ЧАСТЕЙ АРМЯНСКАЯ АРМИЯ СОСРЕДОТОЧИЛАСЬ У ЛАЧИНА, ОГОЛИВ ДРУГИЕ УЧАСТКИ ФРОНТА. ВОЕННЫЕ ЭКСПЕРТЫ НАЗВАЛИ ЭТОТ ЛОЖНЫЙ МАНЕВР АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ «БРОСКОМ КОБРЫ».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Bərdəyə vurduğu raket zərbəsi nəticəsində həlak olanların ailələrinə başsağlığı verdi. Həmin gün dövlətimizin başçısı İran İslam Respublikası Prezidentinin xüsusi təmsilçisinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. "Məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycan-İran dövlət sərhədi tam bərpa edilib. Bu münasibətlə mən Azərbaycan və İran xalqlarını təbrik etmişəm. Göstəriş vermişəm ki, bizim sərhəd xidmətimiz tezliklə bu sərhədin bütün mühafizə infrastrukturunu yaratsın. Bu işlərə start verildi. İran-Azərbaycan sərhədinin digər istiqamətlərindəki kimi, bu istiqamət də dostluq, qardaşlıq sərhədi olacaqdır, – deyə İlham Əliyev qeyd edib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib. Müsahibədə Qarabağın işğaldan azad

President Aliyev expressed his condolences to the families of those killed by Armenia's missile attack on Barda. On the same day, the President received a delegation led by the Special Representative of the President of the Islamic Republic of Iran. "I say with satisfaction that the Azerbaijan-Iran state border has been fully restored. I have already congratulated the Azerbaijani and Iranian peoples on this occasion. I gave instructions to our border service to quickly establish security infrastructure along the whole border. The work has already begun. This part of the Iranian-Azerbaijani border, like all other sections, will be a border of friendship and brotherhood", said Ilham Aliyev.
President Aliyev gave an interview to the Russian news agency Interfax. During the interview, the President touched upon the relationship between the Azerbaijani and

Президент Азербайджана Ильхам Алиев выразил соболезнования семьям погибших в результате ракетной атаки Вооруженных сил Армении на Барду. В тот же день Президент принял делегацию во главе со специальным представителем Президента Исламской Республики Иран. «С чувством удовлетворения могу сказать, что азербайджано-иранская государственная граница полностью восстановлена. Я уже поздравил по этому случаю азербайджанский и иранский народы. Я дал указание нашей пограничной службе в скором времени создать всю охранную инфраструктуру границы. Эта работа уже началась. Это направление ирано-азербайджанской границы, как и все остальные направления, будет границей дружбы и братства», – отметил Ильхам Алиев.
Президент Азербайджанской Республики Ильхам Алиев дал



Dağlıq Qarabağ bölgəsində münaqişənin gərginləşməsinə səbəb olan Ermənistan artilleriya hücumlarını kəskin şəkildə pislədiyimi bildirmək istəyirəm. Azərbaycan Respublikası ilə çox sıx dostluq münasibətləri olan Bosniya və Herseqovina dövləti Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edir.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç

I would like to inform you that I strongly condemn Armenian artillery attacks, which led to the escalation of the conflict in the Nagorno-Karabakh region. The State of Bosnia and Herzegovina, which has very close friendly relations with the Republic of Azerbaijan, respects the sovereignty and territorial integrity of Azerbaijan.

Shefik Jaferovic, Chairman of the Presidium of Bosnia and Herzegovina

Хочу сообщить, что решительно осуждаю армянские артиллерийские атаки, приведшие к эскалации конфликта в Нагорно-Карабахском регионе. Государство Босния и Герцеговина, имеющее очень тесные дружественные отношения с Азербайджанской Республикой, уважает суверенитет и территориальную целостность Азербайджана.

Председатель Президиума Боснии и Герцеговины Шефик Джаферович

olunmasından sonra buradakı azərbaycanlı və erməni əhalinin qarşılıqlı münasibətləri mövzusuna toxunulub. Prezident qeyd edib: “Mən onu da demişəm ki, nizamlama barədə bizim təsəvvürümüz Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisinin birgə yaşamasından ibarətdir. Tarixən iş elə gətirib ki, artıq 200 ildir erməni əhalisi bu torpaqlarda yaşayır. Ermənilərin Şərqi Anadoludan və İrandan köçürülməsi tarixini biz hamımız bilirik. Lakin iş belə gətirib. Onlar 200 ildir orada yaşayırlar. Erməni əhalinin bundan sonra da orada yaşaması barədə bizim heç bir planımız yoxdur. Əksinə, mən həmişə demişəm ki, Azərbaycanda erməni millətindən olan minlərlə vətəndaş yaşayır. Qonşu ölkələrdə də ermənilər və azərbaycanlılar birgə yaşayır və öz aralarında yaxşı dolanırlar. Bu, Dağlıq Qarabağda niyə mümkün olmasın?”

Armenian population of Karabakh after its liberation from occupation. The President noted, ”Our vision of the settlement is of coexistence of the Armenian and Azerbaijani population in Nagorno-Karabakh. Historically the Armenian population has been living on these lands for 200 years. We all know about the history of the resettlement of Armenians from Eastern Anatolia and Iran. But it happened. They have lived there for 200 years. And we have no objection to the continued presence of the Armenian population. On the contrary, I have always said that thousands of people of Armenian nationality live in Azerbaijan, that Armenians and Azerbaijanis live together in neighbouring countries and get along quite well. Why can't this be achieved in Nagorno-Karabakh?”

интервью российскому агентству «Интерфакс». В нем в частности была затронута тема взаимоотношений азербайджанского и армянского населения в Карабахе после его освобождения от оккупации. Президент отметил: «Наше видение урегулирования заключается в совместном проживании армянского и азербайджанского населения Нагорного Карабаха. Так исторически сложилось, что уже 200 лет армянское население живет на этих землях. Историю переселения армян из Восточной Анатолии и Ирана мы все знаем. Но так сложилось. Они живут там 200 лет. И у нас нет никаких планов в отношении дальнейшего проживания армянского населения. Наоборот, я всегда говорил, что в Азербайджане проживают тысячи граждан армянской национальности, также армяне и азербайджанцы совместно проживают и в соседних странах и хорошо ладят между собой. Почему же нельзя этого добиться в Нагорном Карабахе?»




30
oktyabr
october
октября
2020



DÖYÜŞ ƏMƏLİYYATLARI ƏSASƏN CƏBHƏNİN AĞDƏRƏ, XOCAVƏND VƏ QUBADLI İSTİQAMƏTLƏRİNDƏ DAVAM EDİB. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏBRAYIL RAYONUNUN 4, ZƏNGİLAN RAYONUNUN 2, QUBADLI RAYONUNUN 3 KƏNDİNİN İŞĞALDAN AZAD OLUNMASI BARƏDƏ MƏLUMAT VERİB. AZƏRBAYCAN ORDU HİSSƏLƏRİNİN ŞUŞA İSTİQAMƏTİNDƏ CƏMLƏŞMƏSİ BAŞLAYIB. LAKİN ERMƏNİ KOMANDANLIĞI LAÇIN İSTİQAMƏTİNDƏ "KOBRANIN SIÇRAYIŞI" NƏTİCƏSİNDƏ YANILSA DA, BURADA QOŞUN SAXLAMAQDA DAVAM EDİRDİ.

COMBAT OPERATIONS CONTINUED IN THE AREAS OF AGHDARA, KHOJAVAND AND GUBADLI. PRESIDENT ALIYEV SAID THAT THE AZERBAIJANI ARMY HAD LIBERATED FOUR VILLAGES OF JABRAYIL DISTRICT, TWO ZANGILAN DISTRICT VILLAGES AND THREE VILLAGES IN GUBADLI DISTRICT. AZERBAIJANI UNITS BEGAN TO CONCENTRATE TOWARDS SHUSHA. BUT MISLED BY THE "COBRA DASH" ON LACHIN, THE ARMENIAN COMMAND HELD THEIR TROOPS THERE.

БОЕВЫЕ ОПЕРАЦИИ ПРОДОЛЖАЛИСЬ НА АГДЕРИНСКОМ, ХОДЖАВЕНДСКОМ И ГУБАДЛИНСКОМ НАПРАВЛЕНИЯХ. ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ СООБЩИЛ, ЧТО АЗЕРБАЙДЖАНСКАЯ АРМИЯ ОСВОБОДИЛА 4 СЕЛА ДЖЕБРАИЛЬСКОГО РАЙОНА, 2 СЕЛА ЗАНГИЛАНСКОГО РАЙОНА, 3 СЕЛА ГУБАДЛИНСКОГО РАЙОНА. НАЧАЛАСЬ КОНЦЕНТРАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ ЧАСТЕЙ НА ШУШИНСКОМ НАПРАВЛЕНИИ. НО ВВЕДЕННОЕ В ЗАБЛУЖДЕНИЕ «БРОСКОМ КОБРЫ» НА ЛАЧИН АРМЯНСКОЕ КОМАНДОВАНИЕ ПРОДОЛЖАЛО ДЕРЖАТЬ ЗДЕСЬ ВОЙСКА.

"Amnesty International" təşkilatı Dağlıq-Qarabağ münaqişəsinin gedişində Ermənistanın qadağan olunmuş kasetli bombalardan istifadə etməsi faktını təsdiqləyib. Bu beynəlxalq təşkilatının böhranla mübarizə üzrə ekspertləri Bərdədə çəkilmiş fotolarda Rusiya istehsalı olan 9N235 saylı sursat parçalarının əks olunduğunu təsdiqləyiblər. Bərdə şəhərinin atəşə tutulması zamanı onlardan istifadə nəticəsində 21 dinc sakin həlak olub, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. "Amnesty International"ın Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Meri Straters deyib ki, "kasetli bombaların mülki obyektlərə qarşı istifadəsi amansız və qəddar davranışdır. Bu, çoxsaylı ölüm və xəsarətlərə səbəb olur".

Amnesty International has confirmed Armenia's use of banned cluster munitions during the Nagorno-Karabakh conflict. Crisis response experts of this international organisation have established that photographs taken in Barda show fragments of Russian-made 9N235 cluster munitions. Their use in the shelling of Barda, killed 21 civilians and wounded 70 with varying severity. Firing cluster munitions on civilian areas is brutal and reckless, and causes incalculable deaths, injuries and suffering, said Marie Struthers, Amnesty International's Regional Director for Eastern Europe and Central Asia.

Amnesty International подтвердила факт применения Арменией запрещенных кассетных боеприпасов в ходе нагорно-карабахского конфликта. Эксперты этой международной организации по кризисному реагированию установили, что на фотографиях, сделанных в Барде, фрагменты кассетных боеприпасов 9N235 российского производства.  В результате их применения при обстреле Барды 21 мирный житель был убит, 70 получили ранения различной тяжести. «Стрельба кассетными боеприпасами по гражданским районам является жестокой и безрассудной и приводит к неисчислимым смертям, ранениям и страданиям», – заявила Мэри Стратерс, региональный директор Amnesty International по Восточной Европе и Центральной Азии.


31
oktyabr
october
октября
2020
20114
20122

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN MƏLUMATINA GÖRƏ AĞDƏRƏ, XOCAVƏND VƏ QUBADLI İSTİQAMƏTİNDƏ DÖYÜŞLƏR DAVAM EDİR, ERMƏNİ QOŞUNLARI İTKİ VERƏRƏK BÜTÜN CƏBHƏ BOYU GERİ ÇƏKİLİR. ŞUŞANI ƏHATƏ EDƏN MEŞƏLƏRİ YANDIRMAQ MƏQSƏDİLƏ ERMƏNİ ARTİLLERİYASI ONLARI FOSFORLU MƏRMİLƏRLƏ ATƏŞƏ TUTMAĞA BAŞLAYIB.

FIGHTING FOR AGHDARA, KHOJAVAND AND GUBADLI CONTINUES. ARMENIAN UNITS, SUFFERING LOSSES, ARE RETREATING ALONG THE WHOLE FRONTLINE, REPORTED THE MINISTRY OF DEFENCE OF AZERBAIJAN. AIMING TO BURN THE FORESTS SURROUNDING SHUSHA, ARMENIAN ARTILLERY BEGAN FIRING PHOSPHORUS SHELLS AT THEM.

«БОИ В НАПРАВЛЕНИИ АГДЕРЕ, ХОДЖАВЕНДА И ГУБАДЛЫ ПРОДОЛЖАЮТСЯ, АРМЯНСКИЕ ЧАСТИ, НЕСЯ ПОТЕРИ, ОТСТУПАЮТ ПО ВСЕМУ ФРОНТУ», – СООБЩИЛО МИНИСТЕРСТВО ОБОРОНЫ АЗЕРБАЙДЖАНА. АРМЯНСКАЯ АРТИЛЛЕРИЯ, ПЫТАЯСЬ ПОДЖЕЧЬ ЛЕСА, ОКРУЖАЮЩИЕ ШУШУ, НАЧАЛА ИХ ОБСТРЕЛ ФОСФОРНЫМИ СНАРЯДАМИ.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın "ARD" televiziya kanalına müsahibə verib. Müxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına Azərbaycan Prezidenti belə cavab verib: "Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

President Aliyev gave an interview to the German ARD TV channel. Asked "why Karabakh was so important for Azerbaijan, whether it was for resources there or it had some kind of symbolic meaning", the President replied, "This is our land, our internationally recognised territory. It is not a matter of resources. The main resources are here in Baku. It is a matter of justice, it is a matter of national pride and international law. International law and the entire international community recognise Nagorno-Karabakh as an integral part of Azerbaijan. We are restoring justice and implementing UN Security Council resolutions, which have remained on paper for 27 years".

Президент Азербайджанской Республики Ильхам Алиев дал интервью немецкому телеканалу ARD. На вопрос журналиста: «Почему Карабах так важен для Азербайджана? Там есть ресурсы или это представляет какое-то символическое значение?» Президент Ильхам Алиев ответил: «Это – наша земля, наша международно признанная территория. Это – не вопрос ресурсов. Основные ресурсы здесь, в Баку.
Это – вопрос справедливости, это вопрос национальной гордости и международного права. Международное право и вся международная общественность признают Нагорный Карабах неотъемлемой частью Азербайджана. Мы восстанавливаем справедливость и выполняем резолюции Совета Безопасности ООН, которые 27 лет оставались на бумаге».


2
noyabr
november
ноября
2020



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏBRAYIL RAYONUNUN 3, ZƏNGİLAN RAYONUNUN 2 VƏ QUBADLI RAYONUNUN 3 KƏNDİNİN AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN NƏZARƏTİ ALTINA KEÇDİYİ BARƏDƏ MƏLUMAT VERİB. AZƏRBAYCAN ARTİLLERİYASI DÜŞMƏNİN LAÇIN ƏTRAFINDAKI HİSSƏLƏRİNİ İNTENSİV ATƏŞƏ TUTUB. LAÇINA HÜCUM GÖZLƏYƏN ERMƏNİ KOMANDANLIĞI MÖVQELƏRİ TƏLƏSİK MÖHKƏMLƏNDİRİB.

PRESIDENT ALIYEV SAID THAT THE ARMED FORCES OF AZERBAIJAN HAD ESTABLISHED CONTROL OVER THREE VILLAGES OF JABRAYIL REGION, TWO VILLAGES IN ZANGILAN DISTRICT AND THREE GUBADLI DISTRICT VILLAGES. AZERBAIJANI ARTILLERY IS SHELLING ENEMY UNITS NEAR LACHIN. THE ARMENIAN COMMAND EXPECTS AN ASSAULT AND IS HASTILY FORTIFYING THE POSITIONS.

ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ СООБЩИЛ, ЧТО ПОД КОНТРОЛЬ ВООРУЖЕННЫХ СИЛ ПЕРЕШЛИ 3 СЕЛА ДЖЕБРАИЛЬСКОГО РАЙОНА, 2 СЕЛА ЗАНГИЛАНСКОГО РАЙОНА, 3 СЕЛА ГУБАДЛИНСКОГО РАЙОНА. АЗЕРБАЙДЖАНСКАЯ АРТИЛЛЕРИЯ ВЕЛА АКТИВНЫЙ ОБСТРЕЛ ЧАСТЕЙ ПРОТИВНИКА У ЛАЧИНА. АРМЯНСКОЕ КОМАНДОВАНИЕ ЖДЕТ ЕГО ШТУРМА И СПЕШНО УКРЕПЛЯЕТ ПОЗИЦИИ.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib. Görüşdə çıxış edən Prezident bildirib: "Döyüş meydanında bizim qabağımızda dayana bilməyən Ermənistan şəhərlərimizi, kəndlərimizi hər gün atəşə tutur. Bu gün səhər mənə verilən məlumata görə səhər saat 6-dan, – indi saat 9-a beş dəqiqə qalır, – bizim şəhər və kəndlərimizə 200-dən çox mərmi atılıbdır. Bu bir ay ərzində namərd atəş nəticəsində 91 mülki şəxs həlak olub, onlardan 10-u uşaqdır, 404 mülki şəxs yaralanıbdır və 2 mindən çox ev dağılıbdır".

President Aliyev received Secretary General of the Cooperation Council of Turkic-Speaking States Baghdad Amreyev, President of the Union of Chambers of Commerce and Commodity Exchanges of Turkey Mustafa Rifat, Chairman of the Chamber of Commerce and Industry of Uzbekistan Adham Ikramov and President of the Chamber of Commerce and Industry of Kyrgyzstan Marat Sharshekeyev. Speaking at the meeting, President Aliyev said, "Armenia, which cannot resist us on the battlefield, bombards our cities and villages every day. According to the information given to me this morning, from 6 o'clock in the morning – it is now five to nine – more than 200 shells were fired at our towns and villages. During this month, as a result of this cowardly shelling, 91 civilians have been killed, 10 of them children. 404 civilians were wounded and more than 2,000 houses were destroyed".

Президент Азербайджана Ильхам Алиев принял генерального секретаря Совета сотрудничества тюркоязычных государств Багдада Амреева, президента Союза торговых палат и товарных бирж Турции Мустафу Рифата, председателя Торговой и промышленной палаты Узбекистана Адхама Икрамова и президента Торговой и промышленной палаты Кыргызстана Марата Шаршекеева. Выступая на встрече, Президент Азербайджана в частности сказал: «Армения, которая не может устоять перед нами на поле боя, ежедневно подвергает обстрелу наши города, села. По предоставленной мне сегодня утром информации, с 6 часов утра, – сейчас без пяти девять, – по нашим городам и селам было выпущено более 200 снарядов. В течение этого месяца в результате подлого обстрела погибло 91 гражданское лицо, 10 из них – дети, ранены 404 гражданских лица, разрушено свыше 2 тысяч домов».


4
noyabr
november
ноября
2020



DÖYÜŞLƏR CƏBHƏNİN CƏNUB VƏ CƏNUB-ŞƏRQİNDƏ – AĞDAM, XOCAVƏND, ZƏNGİLAN VƏ QUBADLI İSTİQAMƏTİNDƏ DAVAM EDİB. DÜŞMƏNİN GÖZLƏMƏDİYİ HALDA AZƏRBAYCAN XÜSUSİ TƏYİNATLILARI ŞUŞA-LAÇIN YOLUNU BAĞLAYIB. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV CƏBRAYIL RAYONUNUN 7, ZƏNGİLAN RAYONUNUN 2, QUBADLI RAYONUNUN 3 KƏNDİNİN İŞĞALDAN AZAD OLUNMASI BARƏDƏ MƏLUMAT VERİB.

THE FIGHTING CONTINUED IN THE SOUTHERN AND SOUTH-EASTERN SECTORS OF THE FRONTLINE – AROUND AGHDAM, KHOJAVAND, ZANGILAN AND GUBADLI. UNEXPECTEDLY FOR THE ENEMY, AZERBAIJANI SPECIAL FORCES BLOCKED THE SHUSHA-LACHIN ROAD. PRESIDENT ILHAM ALIYEV SAID THAT THE AZERBAIJANI ARMY HAD LIBERATED SEVEN VILLAGES IN JABRAYIL DISTRICT, TWO VILLAGES IN ZANGILAN DISTRICT AND THREE VILLAGES IN GUBADLI DISTRICT FROM OCCUPATION.

БОИ ПРОДОЛЖАЛИСЬ НА ЮЖНОМ И ЮГО-ВОСТОЧНОМ УЧАСТКАХ ФРОНТА – ПО НАПРАВЛЕНИЮ К АГДАМУ, ХОДЖАВЕНДУ, ЗАНГИЛАНУ И ГУБАТЛЫ. НЕОЖИДАННО ДЛЯ ПРОТИВНИКА АЗЕРБАЙДЖАНСКИЙ СПЕЦНАЗ ПЕРЕКРЫЛ ДОРОГУ ШУША-ЛАЧИН. ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ СООБЩИЛ, ЧТО АЗЕРБАЙДЖАНСКАЯ АРМИЯ ОСВОБОДИЛА ОТ ОККУПАЦИИ 7 СЕЛ ДЖЕБРАИЛЬСКОГО РАЙОНА, 2 СЕЛА ЗАНГИЛАНСКОГО РАЙОНА, 3 СЕЛА ГУБАДЛИНСКОГО РАЙОНА.

AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsini dərc edib. "98 faiz ermənilərin məskunlaşdığı ərazidə mümkün qələbəni qazanmağın Sizin üçün hansı çətinliyi olacaq?" sualına Prezidentin cavabı belə olub: "Bu ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər. Bu, statistikadır, bizim deyil, sovet dövrünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ muxtar vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda

AZERTAC has published an interview that President Ilham Aliyev gave to the Italian newspaper "La Repubblica". When asked about the difficulties that may arise following the liberation of territories with a 98 percent Armenian population, the President replied, "In fact, there may be even more Armenians living in that territory now because all the Azerbaijanis were expelled from there. They conducted an ethnic cleansing of the Azerbaijanis. There are statistics – not ours but from the Soviet era – of how many people representing different nationalities lived in the Nagorno-Karabakh Autonomous Region in the late 1970s. It is possible to say that 25 percent, about 40,000 people, were Azerbaijanis. Azerbaijanis accounted for 98 percent of the population of Shusha. There is not a single Azerbaijani there today.

АЗЕРТАДЖ опубликовал интервью, которое Президент Азербайджана Ильхам Алиев дал итальянской газете «La Repubblica». На вопрос о сложностях, которые могут возникнуть после освобождения территорий, где армяне составляют 98% населения, Президент ответил: «Сегодня на этой территории, возможно, проживает еще больше армян, так как все азербайджанцы изгнаны. Они осуществили против азербайджанцев этническую чистку. Это – статистика, не наша статистика, а советского времени. Сколько человек, представляющих различные национальности, проживали в конце 1970-х годов в Нагорно-Карабахской автономной области? Можно сказать, 25 процентов составляли азербайджанцы, 40 тысяч человек. В Шуше проживали 98 процентов азербайджанцев. Сегодня там нет ни

Bu Vətən müharibəsində biz Azərbaycanın yanındayıq. Türk dünyası və Türk Şurasının Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz geri almaq məsələsində qanuni haqqı barədə dəstəyimi ifadə etdim. Münaqişənin yalnız və yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birliyin tanıdığı sərhədlərinin toxunulmazlığı əsasında həlli lazımdır, deyirik.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının
Baş katibi Bağdad Amreyev

In this Patriotic War, we stand by Azerbaijan. I have expressed the support of the Turkic world and the Turkic Council for Azerbaijan's legitimate right to unconditionally return the lands under occupation. We say that the conflict should be settled exclusively within the framework of the sovereignty, territorial integrity and on the basis of the inviolability of the borders of the Republic of Azerbaijan recognised by the international community.

Secretary General of the Cooperation Council
of Turkic-Speaking States, Baghdad Amreyev

В этой Отечественной войне мы рядом с Азербайджаном. Я выразил поддержку тюркского мира и Тюркского совета в связи с законным правом Азербайджана на безоговорочное возвращение находящихся под оккупацией земель. Мы говорим, что конфликт должен быть урегулирован исключительно в рамках суверенитета, территориальной целостности и на основании неприкосновенности признанных международным сообществом границ Азербайджанской Республики.

Генеральный секретарь Совета сотрудничества
тюркоязычных государств Багдад Амреев





azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar". Daha sonra Azərbaycan Prezidenti bildirib: "Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq və onlar bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altında olduğundan daha yaxşı həyat sürəcəklər".

Many Azerbaijanis lived in Khankendi. Hadrut District, other districts, Khojaly where they committed genocide, were 100 percent Azerbaijani. So all of them were subjected to ethnic cleansing, torture, killing and expulsion".
The President added, "I have repeatedly stated that all residents of Nagorno-Karabakh will continue to live there peacefully and with dignity. Armenians are our citizens. Thousands of Armenians live in various parts of Azerbaijan, mainly in Baku. The Armenians living in Nagorno-Karabakh can be sure that their safety will be guaranteed, their financial situation will improve, they will live better than now, as they are under pressure from the junta in Nagorno-Karabakh".

одного азербайджанца. Много азербайджанцев проживало в Ханкенди. Гадрутский район, другие районы, Ходжалы, где они совершили геноцид, на 100 процентов состояли из азербайджанцев. Таким образом, все они подверглись этнической чистке, пыткам, были убиты и изгнаны».
Далее Президент Азербайджана сказал: «Я неоднократно говорил, что все жители Нагорного Карабаха будут продолжать жить там мирно и достойно. Армяне – наши граждане. В различных местах Азербайджана, в основном в Баку, проживают тысячи армян. Армяне, проживающие в Нагорном Карабахе, могут быть уверены в том, что будет обеспечена их безопасность, их материальное положение станет лучше, они будут жить лучше, чем сегодня, когда находятся под давлением режима хунты в Нагорном Карабахе".


5 noyabr
november
ноября
2020

AZƏRBAYCANIN XÜSUSİ TƏYİNATLI DƏSTƏLƏRİ KEÇİLMƏZ HESAB EDİLƏN DAĞLARI AŞARAQ ŞUŞAYA DAXİL OLDULAR VƏ ŞƏHƏRİN MƏRKƏZİNİ TUTDULAR.

UNITS OF AZERBAIJANI SPECIAL FORCES, HAVING CROSSED THE MOUNTAINS THAT WERE CONSIDERED IMPASSABLE, ENTERED SHUSHA AND GAINED CONTROL OVER THE CENTRE OF THE CITY.

ОТРЯДЫ АЗЕРБАЙДЖАНСКОГО СПЕЦНАЗА, ПРЕОДОЛЕВ СЧИТАВШИЕСЯ НЕПРОХОДИМЫМИ ГОРЫ, ВОРВАЛИСЬ В ШУШУ И ЗАНЯЛИ ЦЕНТР ГОРОДА.




Qalaya çevrilmiş Şuşanı 3 min erməni əskəri müdafiə edirdi. Lakin onlar Azərbaycan xüsusi təyinatlılarının sıldırım qayalarla şəhərə daxil ola biləcəklərini heç cür gözləmirdilər. Şəhərə ilk daxil olan snayperlər əsas yol kəsişmələrini nəzarətə götürdülər. Onların atəşlə müdafiəsi altında xüsusi təyinatlılar şəhərə daxil oldu. Cəmi 400 nəfər xüsusi təyinatlı avtomat, bıçaq və qumbaralarla silahlanmışdı. Onların qarşısında isə tanklar, artilleriya, minaatanlar, pulemyotlar dayanmışdı. Lakin Azərbaycan hərbçiləri hücuma keçdilər. Döyüşlər o dərəcədə şiddətli idi ki, düşmən qaçmağa məcbur oldu. Fransanın "Le Monde" qəzetinin müxbiri xəstəxanaya onlarla yaralının daşınması barədə yazırdı: "Şuşanı müdafiə edənlər pərən-pərən düşmüş vəziyyətdədirlər... 6 noyabr cümə günündən etibarən döyüş Azərbaycan qüvvələrinin xeyrinə dönməyə başlayıb".

Turned into a fortress, Shusha was defended by 3,000 Armenian soldiers. However, they did not expect Azerbaijani special forces to be able to get into the city by climbing precipitous cliffs. The first to infiltrate the city were snipers who established control over the main junctions. They provided fire support for the subsequent arrival of special forces in Shusha. There were only 400 of them – armed with submachine guns, knives and grenades. Opposing them were tanks, artillery, mortars and machine guns. Nevertheless, the Azerbaijanis went on the attack, with such intensity that the enemy had to flee. A correspondent of the French newspaper "Le Monde" reported that dozens of wounded were being rushed to the hospital. "The defenders of Shusha have been crushed... The battle for Shusha ended in favour of the Azerbaijani forces on the evening of Friday 6 November", he wrote.

Превращенную в крепость Шушу обороняли 3 тысячи армянских солдат. Но они никак не ожидали, что азербайджанские спецназовцы смогут пробраться в город по совершенно отвесным скалам. Первыми в город просочились снайперы, которые взяли под контроль основные перекрестки. Под прикрытием их огня в Шушу ворвались спецназовцы. Их было всего 400 человек, вооруженных автоматами, ножами и гранатами. А против них танки, пушки, минометы, пулеметы. Но азербайджанцы пошли в атаку. И настолько яростную, что враг бежал. Корреспондент французской газеты «Le Monde» сообщил о доставленных в госпиталь десятках раненых. «Защитники Шуши разорваны в клочья... Битва за Шушу обернулась вечером в пятницу 6 ноября в пользу азербайджанских сил», – писал он.


7 noyabr november ноября 2020



AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN MƏLUMATINA GÖRƏ DÖYÜŞ ƏMƏLİYYATLARI MÜXTƏLİF İNTENSİVLİKDƏ ƏSASƏN CƏBHƏNİN AĞDƏRƏ, AĞDAM VƏ XOCAVƏND İSTİQAMƏTLƏRİNDƏ DAVAM EDİB. DÜŞMƏN CƏBHƏNİN BƏZİ SAHƏLƏRİNDƏ ŞƏXSİ HEYƏT VƏ HƏRBİ TEXNİKADA İTKİLƏR VERƏRƏK GERİ ÇƏKİLMƏYƏ MƏCBUR EDİLİB.

THE MINISTRY OF DEFENCE REPORTED THAT ON 7 NOVEMBER, COMBAT OPERATIONS OF VARYING INTENSITY CONTINUED MAINLY IN THE AREAS OF AGHDARA, AGHDAM AND KHOJAVAND. THE ENEMY, HAVING SUFFERED LOSSES IN MANPOWER AND MILITARY EQUIPMENT, WAS FORCED TO RETREAT FROM SEVERAL SECTIONS OF THE FRONT.

МИНИСТЕРСТВО ОБОРОНЫ АЗЕРБАЙДЖАНА СООБЩИЛО, ЧТО 7 НОЯБРЯ БОЕВЫЕ ОПЕРАЦИИ С РАЗЛИЧНОЙ ИНТЕНСИВНОСТЬЮ ПРОДОЛЖАЛИСЬ ПРЕИМУЩЕСТВЕННО НА АГДЕРИНСКОМ, АГДАМСКОМ И ХОДЖАВЕНДСКОМ НАПРАВЛЕНИЯХ. ПРОТИВНИК, ПОНЕСЯ ПОТЕРИ В ЖИВОЙ СИЛЕ И ВОЕННОЙ ТЕХНИКЕ, ВЫНУЖДЕН БЫЛ ОТСТУПИТЬ НА НЕСКОЛЬКИХ УЧАСТКАХ ФРОНТА.

Azərbaycan Ordusu bütün cəbhə boyu hücum əməliyyatları aparıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun 6, Cəbrayıl rayonunun 2, Qubadlı rayonunun 3, Zəngilan rayonunun 1, Xocalı rayonunun 2, Xocavənd rayonunun 2 kəndinin işğaldan azad olunması barədə məlumat verib. Erməni qoşunları Azərbaycan xüsusi təyinatlılarını Şuşadan çıxarmaq məqsədilə hücuma keçib. Lakin noyabrın 7-də Azərbaycan Ordusunun motoatıcı hissələri şəhərə daxil olaraq mühəndis hissələrinin dəstəyi ilə tanklar üçün meşələrin içindən yol salmağa müvəffəq oldular.
Şuşa son erməni əskərlərindən təmizləndi.

The Azerbaijani army is conducting offensive operations on all fronts. The President of Azerbaijan announced the liberation of six villages in Fuzuli District, two Jabrayil District villages, three villages in Gubadli District, one village in Zangilan District, two villages in Khojaly District and two Khojavand District villages. Armenian troops launched a counteroffensive, trying to drive Azerbaijani special forces from Shusha. But by 7 November, Azerbaijan's motorized rifle units had broken into the city and, with support from engineering units, managed to pave a road for tanks through the forests. Shusha was cleared of the last remaining Armenian soldiers.

Азербайджанская армия ведет наступательные операции на всех фронтах. Президент Азербайджанской Республики объявил об освобождении 6 сел Физулинского района, 2 сел Джебраильского района, 3 сел Губадлинского района, 1 села Зангиланского района, 2 сел Ходжалинского района, 2 сел Ходжавендского района. Армянские войска перешли в контрнаступление, пытаясь выбить азербайджанский спецназ из Шуши. Но к 7 ноября к городу прорвались мотострелковые части Азербайджана, которые при поддержке инженерных частей сумели проложить дорогу через леса для танков. Шуша была очищена от последних армянских солдат.


8
noyabr
november
ноября
2020



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV, QARABAĞ XANLIĞININ PAYTAXTI, QARABAĞIN İNZİBATİ MƏRKƏZİ OLAN QƏDİM ŞUŞA ŞƏHƏRİNİN İŞĞALDAN AZAD OLUNMASI BARƏDƏ MƏLUMAT VERDİ. ALİ BAŞ KOMANDAN, PREZİDENT İLHAM ƏLİYEV ŞUŞANIN AZAD EDİLMƏSİNDƏ QƏHRƏMANLIQ GÖSTƏRMİŞ AZƏRBAYCAN RESPUBLİKASININ RƏŞADƏTLİ SİLAHLI QÜVVƏLƏRİNİN BÜTÜN ŞƏXSİ HEYƏTİNİ TƏBRİK ETDİ.

PRESIDENT ILHAM ALIYEV ANNOUNCED THE LIBERATION OF SHUSHA, AN ANCIENT CITY, THE CAPITAL OF THE KARABAKH KHANATE AND KARABAKH'S ADMINISTRATIVE CENTRE. THE SUPREME COMMANDER-IN-CHIEF, PRESIDENT ILHAM ALIYEV CONGRATULATED THE SERVICEMEN AND ALL PERSONNEL OF THE ARMED FORCES OF THE REPUBLIC OF AZERBAIJAN, WHO HAD FOUGHT HEROICALLY AND COURAGEOUSLY FOR THE LIBERATION OF SHUSHA.

ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ СООБЩИЛ ОБ ОСВОБОЖДЕНИИ ШУШИ – ДРЕВНЕГО ГОРОДА, СТОЛИЦЫ КАРАБАХСКОГО ХАНСТВА, АДМИНИСТРАТИВНОГО ЦЕНТРА КАРАБАХА. ВЕРХОВНЫЙ ГЛАВНОКОМАНДУЮЩИЙ, ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ ПЕРЕДАЛ ПОЗДРАВЛЕНИЯ ВОЕННОСЛУЖАЩИМ, ВСЕМУ ЛИЧНОМУ СОСТАВУ ВООРУЖЕННЫХ СИЛ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ, ГЕРОИЧЕСКИ И МУЖЕСТВЕННО УЧАСТВОВАВШИХ ВО ВЗЯТИИ ШУШИ.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət etdilər. Daha sonra dövlətimizin başçısı Azərbaycan xalqına müraciət etdi. O bildirdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır". Prezident Azərbaycan Ordusunun zəfərinin təməlində dayanan başlıca amilləri sadaladı. Bunlar iqtisadi müstəqillik, milli birlik və beynəlxalq səviyyədəki uğurlar. "Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır.

On the same day, President of Azerbaijan Ilham Aliyev and First Vice-President Mehriban Aliyeva visited the Avenue of Honour and the Alley of Martyrs. Then the head of state addressed the Azerbaijani people. He said, "Shusha, which has been under occupation for 28 and a half years, has been liberated! Shusha is now free! We have returned to Shusha! We have won this historic victory on the battlefield. 8 November 2020 will forever go down in the history of Azerbaijan".
The President listed the factors underlying Azerbaijan's military victory. These are economic independence, national unity and international authority. "We have proved that Nagorno-Karabakh is a historical and ancestral Azerbaijani land, and this issue must be resolved on the basis of the norms and principles of inter-

В тот же день Президент Азербайджана Ильхам Алиев и Первый вице-президент Мехрибан Алиева посетили Аллею почетного захоронения и Шехидляр хиябаны. Затем глава государства обратился к азербайджанскому народу. Он сказал: «Шуша, двадцать восемь с половиной лет находившаяся под оккупацией, освобождена! Шуша теперь свободна! Мы вернулись в Шушу! Мы одержали эту историческую победу на поле боя. 8 ноября 2020 года навечно войдет в историю Азербайджана».
